**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

**KİTABXANA-İNFORMASİYA MƏRKƏZİ**

**Tamilla Əsgərova**

**Natiq Mürsəlov**

# SƏNƏD-İNFORMASİYA RESURSLARI FONDUNUN CARİ NƏŞRLƏRİ

***(annotasiyalı elmi-biblioqrafik göstərici)***

**1-ci cild**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 12 fevral 2020-ci il tarixli iclasının qərarı ilə təsdiq olunmuşdur (protokol №04).

**BAKI - 2020**

**Elmi redaktor:** Gülşən Əliyeva-Kəngərli
filologiya üzrə elmlər doktoru, professor
*ADMİU-nun Beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektoru*

**Rəyçilər:** Kərim Tahirov
tarix üzrə fəlsəfə doktoru, professor
*Azərbaycan Milli Kitabxanasının direktoru*

Aqşin Babayev
filologiya üzrə elmlər doktoru, professor
*ADMİU rektorunun humanitar məsələlərlə iş üzrə müşaviri*

Sənəd-informasiya resursları fondunun cari nəşrləri [Mətn] : annotasiyalı elmi-biblioqrafik göstərici. Cild 1 / Tamilla Əsgərova, Natiq Mürsəlov ; elmi red. : G.Əliyeva-Kəngərli ; rəy. : K.Tahirov, A.Babayev ; Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. - Bakı : ADMİU, 2020. - 160 s.

*Azərbaycanın ali məktəb kitabxanaları içərisində ilk dəfə olaraq tərtib olunan bu fundamental elmi-biblioqrafik resursda 2019-cu ildə ADMİU-nun Kitabxana-informasiya Mərkəzinin fonduna Azərbaycan və xarici dillərdə yeni daxil olan nəşrlər (kitab, magistr dissertasiyası və jurnallar) haqqında analitik məlumatlar verilib. Kitaba daxil edilən nəşrlər Universal Onluq Təsnifat (UOT) cədvəllərinə uyğun olaraq elm sahələri üzrə sistemləşdirilib. Biblioqrafik mənbədən səmərəli və operativ istifadəni təmin etmək məqsədilə sənəd-informasiya resursları müəlliflərin və ya sərlövhələrin əlifba sırası, eləcə də, fondda yerləşdiyi şifrələri ilə birlikdə verilib.*

© T.Əsgərova, N.Mürsəlov, 2020

# AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİNDƏ KİTABXANA-BİBLİOQRAFİYA VƏ ELMİ İNFORMASİYA FƏALİYYƏTİNİN TƏŞKİLİ

Bu gün elmi-fəlsəfi və ədəbi-bədii irsin toplanıb saxlanılmasında, cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan ali təhsil müəssisələri kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi, fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsi, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsi, elektron məlumat banklarının yaradılması və kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində mühüm işlər görülür. Həyata keçirilən tədbirlər ölkəmizin ali məktəb kitabxanalarının fondlarında cəmlənmiş zəngin sənəd-informasiya resurslarının oxucuların kitabxana-informasiya təminatındakı rolunun yüksəldilməsinə xidmət edir.

Unikal elm ocaqlarından biri olaraq Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) kitabxanası elm, təhsil, mədəniyyət və incəsənətin ayrılmaz tərkib hissəsi kimi milli-mənəvi dəyərlərimizin qorunub inkişaf etdirilməsində və oxucuların elmi potensialının artırılması istiqamətində səmərəli fəaliyyət göstərir.

Çağdaş dönəmdə Azərbaycan Respublikası dünyada təkcə balanslaşdırılmış, prinsipial, ədalətli xarici siyasəti ilə, zəngin təbii resurslara malik olan dövlət kimi deyil, həm də böyük mədəniyyət yaratmış, zəngin bədii təfəkkür sahibi olan ölkə kimi tanınır. Bu reallıq digər sahələrlə yanaşı, bədii təhsil təmayüllü ali məktəblərin, o cümlədən bizim də qarşımıza yeni tələblər, vəzifələr qoyur, həm də yeni imkanlar açır.

Mədəniyyətlərarası dialoqun inkişafında, şübhəsiz ki, mədəniyyət təhsilinin böyük rolu vardır. Yaşamaqda olduğumuz çağdaş cəmiyyətdə informasiya və kommunikasiya imkanlarının genişlənməsi, texnogen amilin rolunun qüvvətlənməsi mədəniyyətlərarası əlaqələri daha da intensiv edir. Ona görədə bu əlaqələrin öyrənilməsi, onların idarə olunması zərurəti meydana çıxır. Bu zərurəti ödəmək üçünsə, şübhəsiz ki, mədəni proseslərin öyrənilməsi işinin, onun təlim-tədris və təcrübi qaynaqlarının sistemləşdirilməsi tələb olunur.

Müstəqil Azərbaycan Respublikasında qəbul edilmiş Təhsil Qanununun konsepsiyaları mənəvi - əxlaqi baxımdan kamil, ixtisasca savadlı gəncliyin yetişməsi işinə yönəldilib. Bu işi həyata keçirmək ADMİU-nun prioritet istiqamətlərindəndir. Universitetin məqsədi dünyanın bədii sənət təhsilli ali məktəbləri ilə əməkdaşlıq etmək, Azərbaycan xalqının mənəvi-tarixi keçmişini dərindən öyrənən, bu millətin dünyadakı yerini dərk edən yüksək dövlətçilik duyğusuna, dərin əxlaqa malik, savadlı, müstəqilliyimizi qorumağa və tarixdə irəli aparmağa qadir mədəniyyət mütəxəssisləri yetişdirən bir ali məktəb kimi dünyada tanınmaqdır.

Professor-müəllim heyətinin və tələbələrin elmi mütaliə prosesini təşkil etmək məqsədilə ADMİU-da hələ 1925-ci ildən yaradılmış kitabxana çoxillik tarixi inkişaf yolu keçmişdir. Zəngin sənəd-informasiya resursları fonduna malik kitabxananın formalaşması, kitabxana-biblioqrafiya və informasiya xidməti səviyyəsinin yüksəlməsi universitetin fəaliyyət dövründə və hazırda da onun əldə etdiyi ən mühüm elmi-mədəni nailiyyətlərdən biridir.

Elmi kitabxana son 5 ildəki fəaliyyəti nəticəsində bütün parametrlər üzrə inkişaf etmiş, universitetin ən böyük struktur

bölmələrindən birinə çevrilmişdir. Belə ki, hazırda o, sənəd-informasiya resurslarının zənginliyinə, ədəbiyyat çeşidinin rən-garəngliyinə, fəaliyyət dairəsinə, iş prosesinin elmi təşkilinə və avtomatlaşdırılmasına, o cümlədən xidmət səviyyəsinin keyfiy-yət göstəricilərinə görə digər ali məktəb kitabxanalarından fərqlənir.

Qürurverici haldır ki, bu gün ADMİU-nun elmi kitabxa-nası kimi fəaliyyət göstərən Kitabxana-informasiya Mərkəzi möhtəşəm kitab məbədi olaraq ölkəmizdə mədəniyyətin müxtə-lif istiqamətləri, eləcə də sosial, ictimai və humanitar elm sahə-ləri üzrə ən iri ali təhsil müəssisəsi kitabxanasıdır.

Mərkəz fəaliyyətini əsasnaməsinə uyğun olaraq "İRBİS-64" Avtomatlaşdırılmış Kitabxana Sistemi vasitəsilə universi-tetin tələbə, magistrant, doktorant, dissertant, professor-müəl-lim heyəti və digər əməkdaşlarına göstərilən kitabxana-infor-masiya xidmətinin modernləşdirilməsi, beynəlxalq standartlara uyğunlaşdırılması və elmin analitik-informasiya təminatının optimallaşdırılmasına yönəltmişdir.

Qeyd edək ki, Rusiya Elmi-texniki Kitabxanasının hazır-ladığı "İRBİS-64" sistemi sənəd-informasiya resursları fondu-nun komplektləşdirilməsi və uçotunu, abonement və soraq-ax-tarış xidmətinin avtomatlaşdırılması, İnternet vasitəsilə oxucu-ların uzaq məsafədən "online" rejimində ədəbiyyat axtarışı və sifarişini təmin edir.

Hazırda mərkəzin əməkdaşları sənəd-informasiya resurs-ları fondunun profilə uyğun çap və elektron nəşrlərlə komplekt-ləşdirilməsi və elmi sistemləşdirilməsi, kitabxana-biblioqrafiya proseslərinin kompüterləşdirilməsi, elmi-tədqiqat işlərinin ana-litik-informasiya təminatının optimallaşdırılması, sənəd-infor-masiya resursları fondundan səmərəli istifadənin təşkili və el-

mi-kütləvi tədbirlərin keçirilməsi, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində elmi-tədqiqatların aparılması istiqamətində səmərəli fəaliyyətlərini davam etdirirlər.

İxtisaslaşmış sənəd-informasiya resursları fondunun müntəzəm və planlı şəkildə zənginləşməsi, oxucuların informasiya tələbatlarına uyğun formalaşması və inkişafı məqsədilə ADMİU-nun tədris proqramlarına və elmi-tədqiqat işlərinə uyğun mövzuların təhlili nəticəsində mərkəzdə cari komplektləşmə həyata keçirilir. Bununla da, sənəd-informasiya resursları fondu ADMİU-nun professor-müəllim heyəti, ayrı-ayrı alim, mütəxəssis və başqa müəlliflərin çap olunmuş nəşrləri, şəxsi kitabxanası, kitab mağazaları və digər mənbələr hesabına zənginləşir. Mədəniyyət və incəsənətin müxtəlif istiqamətlərini (teatr, kino, televiziya, rəssamlıq, musiqi və humanitar sahələr) özündə əks etdirən mərkəzin çoxşaxəli və zəngin ixtisaslaşmış fondunun ümumi həcmi 47679 nüsxə sənəd-informasiya resursundan - Azərbaycan və dünya xalqlarının bir çox dillərində kitab, jurnal, avtoreferat, dissertasiya, not, fotoalbom, izomaterial və elektron nəşrdən ibarətdir.

Komplektləşmə zamanı tətbiq olunan yeniliklərdən biri "İRBİS-64" proqramının komplektləşdirici işçi yerində "Yeni daxil olan nəşrlər" adlı analitik-informasiya bazasında elektron inventarlaşmadır. Bazaya daxil edilən hər bir nəşrin müəllifi, sərlövhəsi, çap olunduğu ili, nəşriyyatı, yeri, həcmi, nüsxələrinin sayı və daxilolma mənbəyi göstərilir.

Sənəd-informasiya resurslarının tipoloji və növ təsnifatına əsasən fondun səmərəli formalaşdırılması və nəşrlərdən istifadənin operativliyini təmin etmək məqsədilə "İRBİS-64" proqramının kataloqlaşdırıcı işçi yerində "Azərbaycan kitabı", "Rus kitabı", "Avtoreferat", "Magistr dissertasiyası", "Elmi-

tədqiqat işi", "Doktorluq dissertasiyası" adlı analitik-informasiya bazalarının formalaşdırılması da mərkəzin innovativ fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edir.

ADMİU-nun www.admiu.edu.az rəsmi veb saytında mərkəzin xüsusi verilənlər bazası oxucuların istifadəsindədir. Mütəmadi olaraq bazanın "Mərkəzin tarixi və bu günü"; "Elektron kataloq"; "Elektron kitabxana"; "Xəbərlər"; "Yeni daxil olan kitablar" və "Virtual sərgi" bölmələri təkmilləşdirilir.

Mərkəz universitetdə aparılan elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsində, ümumrespublika elektron informasiya məkanına inteqrasiya məqsədilə müvafiq elm sahələrində araşdırma fəaliyyətinin müasir tələblərə uyğun həyata keçirilməsi məqsədilə "İRBİS-64" sistemində yaradılan və qlobal informasiya məkanına inteqrasiya imkanlarına malik olan "Vahid Biblioqrafik Verilənlər" analitik-informasiya bazasını hələ ki, lokal şəbəkədə oxucuların istifadəsinə təqdim edib. Bazanın İnternet vasitəsilə qlobal şəbəkədə informasiya tələbatçılarının istifadəsinə verilməsi istiqamətində müvafiq texniki-proqram təminatının tətbiq olunması üzrə iş davam etdirilir.

Hazırda mərkəzdən istifadə edən oxucuların ümumi sayı 2379 nəfərdir. "İRBİS-64" sistemində yaradılan istifadəçi bazasında oxucuların qeydiyyatı prosesi elektronlaşdırılıb. İstifadəçilərə fərdi abonement vasitəsilə ümumi oxu zallarında kitabxana-biblioqrafiya və informasiya xidməti göstərilir. İnternetdən istifadə etməklə elektron nəşr, elmi jurnal və dövrü mətbuat materialı oxuculara elektron poçt və ya xarici yaddaş qurğusu vasitəsilə təqdim edilir. Müvafiq mövzular üzrə İnternetdə nüfuzlu jurnallarda axtarış aparmaqda və elmi mənbələri araşdırmaqda istifadəçilərə metodik köməklik göstərilir.

Burada oxucuların abonementdən istifadə zamanı sənəd-saxlama sistemindən tamamilə imtina edilib və dövriyyə ara-yışı mexanizmi uğurla tətbiq olunur.

Mərkəzdə həyata keçirilən uğurla işlərdən biri də 2016-cı ildən təşkil olunan "Sənin kitabın" layihəsidir. Gənc oxucuların mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda informasiya mədəniyyətinin formalaşdırılmasına yönəlmiş layihəyə əsasən tələbələrin daha çox maariflənməsi, mütaliəyə cəlb olunması, ümumi dünyagörüşünün genişlənməsi və nitq mədəniyyətinin yüksəldilməsi məqsədilə mütəmadi şəkildə oxuculara kitablar hədiyyə olunur.

Zənginləşən sənəd-informasiya resursları fondunun təbliği məqsədilə hər il mərkəzdə müxtəlif mövzulara, görkəmli dövlət, elm, mədəniyyət və incəsənət xadimlərinin, yazıçıların, şairlərin yubileylərinə həsr olunmuş ənənəvi və virtual sərgilər təşkil olunur.

Bakıda hər 2 ildən bir keçirilən Beynəlxalq Kitab-Sərgi Yarmarkasında 6-cı dəfədir ki, mərkəz fəal iştirak edib. Gənc nəslin kitaba maraq və sevgisini daha da artırmaq, oxucuları yerli və dünyanın aparıcı nəşriyyatlarının məhsulları ilə tanış etmək məqsədilə keçirilən sərgi-yarmarkada ADMİU-nun pro-fessor-müəllim heyətinin son illlərdə çap olunmuş nəşrləri geniş təbliğ edilib.

Mərkəzin ixtisaslı mütəxəssisləri kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığın müxtəlif aktual məsələlərinə həsr olu-nan araşdırmalar apararaq respublikada keçirilən yerli və bey-nəlxalq elmi-nəzəri və praktiki konfranslarda məruzələrlə çıxış edir, tezisləri həmin konfransların materiallarında çap olunur və elmi jurnallarda məqalələri dərc edilir.

Son dövrdə mərkəzin sənəd-informasiya resursları fondunun elmi tədqiqi nəticəsində 1900-1940-cı illərin nəşri olan teatr və rəssamlıq sahəsini əhatə edən 132 adda 150 nüsxə nadir və qiymətli nəşr müəyyən edilib. Həmin nəşrlər "İRBİS-64" sistemində yaradılan "Nadir fond" adlı analitik-informasiya bazasına daxil edilib. Nadir və qiymətli nəşrlər haqqında analitik məlumatları özündə əks etdirən kataloq hazırlanır. Qeyd edək ki, nəşrlərin "Azərbaycanın kitab abidələri" dövlət reyestrinə daxil edilməsi nəzərdə tutulur.

Bu ildən etibarən mərkəz ali məktəb kitabxanaları içərisində ilk dəfə olaraq "Sənəd-informasiya resursları fondunun cari nəşrləri" adlı annotasiyalı elmi-biblioqrafik göstəricinin tərtibi və nəşrinə başlayıb.

Bu biblioqrafik resursun ilk buraxılışında oxuculara Azərbaycan və xarici dillərdə mərkəzin sənəd-informasiya resursları fonduna 2019-cu ildə yeni daxil olan nəşrlər (kitab, magistr dissertasiyası və jurnallar) haqqında operativ məlumat verilir. Nəşrlər Universal Onluq Təsnifat (UOT) cədvəllərinə uyğun olaraq elm sahələri üzrə sistemləşdirilib. Oxucuların vəsaitdən səmərəli istifadəsini təmin etmək məqsədilə nəşrlər əlifba sırası və fondda yerləşdiyi şifrələri ilə birlikdə verilib.

Biblioqrafik resurs mədəniyyət və incəsənət sahəsində aparılan elmi-araşdırmaların mühüm qaynaqlarından biri kimi professor-müəllim heyətinin və tədqiqatçıların əsas istinad mənbəyi olacaqdır.

İnanırıq ki, gərgin əməyin nəticəsi kimi ərsəyə gələn bu vəsait milli biblioqrafiyamızın inkişafında əvəzsiz rol oynayacaq və o, kitabxanaçılıq və informasiya fəaliyyəti üzrə təhsil alan tələblər və bu sahədə çalışan işçilər üçün metodiki vəsait rolunu oynayacaqdır.

İnamla vurğulaya bilərik ki, ADMİU-nun Kitabxana-informasiya Mərkəzinin bugünkü uğurlu fəaliyyəti mədəniyyət və incəsənət sahələrində elm və təhsilin informasiya potensialının optimallaşdırılmasını, müəllim-tələbə heyətinə, alim və mütəxəssislərə göstərilən kitabxana-biblioqrafiya və informasiya xidmətinin modernləşdirilməsini, beynəlxalq standartlar səviyyəsinə çatdırılmasını və inkişafını bundan sonra da müvəffəqiyyətlə təmin edəcəkdir.

**Gülşən ƏLİYEVA-KƏNGƏRLİ**
**filologiya üzrə elmlər doktoru, professor**
*ADMİU-nun Beynəlxalq əlaqələr və*
*tərbiyə işləri üzrə prorektoru*

# KİTAB

## İnformasiya (kompüter) texnologiyası sistemləri

1. **AzK 2222** **Əliyeva, N.** Kompüter texnologiyaları [Mətn]: dərs vəsaiti / Nəzirə Əliyeva.- Bakı: ADMİU, 2019.- 159 s.

   Kitabda informatikanın əsas anlayışları, müasir kompüter texnikasının əsasları, fərdi kompüterlər, alqoritmləşdirmə və proqramlaşdırmanın əsasları, kompüterin proqram təminatı kimi mövzular tələbələrin diqqətinə çatdırılır. Dərs vəsaiti materialının asan mənimsənilməsi üçün mövzular kifayət sayda illüstrasiyalarla və misallarla müşayiət olunur.

2. **AzK 6351 6352** **Əliyeva, N.** Mədəniyyət və kompüter texnologiyaları [Mətn] : metodiki vəsait/ Nəzirə Əliyeva. - Bakı: ADMİU, 2019. - 71 s.

   Vəsaitdə sistem və tətbiqi proqram təminatı, müasir fərdi kompüterlər üçün geniş tətbiq olunan mətn, cədvəl, qrafik və riyazi proqram paketləri, verilənlər bazaları və onlarla işləmək üçün proqram paketləri, kompüter şəbəkələri ətraflı şərh olunur.

## Mədəniyyət, kulturologiya

3. **AzK 6710** **"Azərbaycanlıların soyqırımı - 100"** [Mətn]: VII Dəyirmi masa, Bakı, 2015-2018/

Y. M. Mahmudov [və b.]; ideya müəl., layihənin rəh. K. A. Abdullayev ; red. heyəti: Y. M. Mahmudov [və b.] ; elmi red.: S. Ə. Rüstəmova-Tohidi, H. Verdiyeva, N. Gözəlova; Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi. - Bakı : Şərq-Qərb, 2018. - 296 s.

"Terror multikulturalizmə qarşı" layihəsi çərçivəsində Bakı şəhərində iki dəfə keçirilmiş beynəlxalq konfransın materialları bir yerə toplanaraq nəşr olunmuşdur. Məruzələrin ümumi ortaq mövzuya həsr edildiyini və bir-biri ilə əlaqəsini diqqətə çatdırmaq, eləcə də onların daha rahat və asan qavranılmasına nail olmaq məqsədilə nəşrin redaktorları ənənəvi "konfrans materialları" deyil, dəyirmi masa mödelinə üstünlük vermişlər.

| | | |
|---|---|---|
| **4.** | **AzK 6713** | **Əliyeva, N.** Azərbaycanda İslam Mədəniyyəti (VII-XIII əsr) [Mətn] / Nərgiz Əliyeva. - Bakı: Elm və təhsil, 2017. - 488 s.<br>Kitab Azərbaycan Respublikasında dövlətçiliyin təməlini qoruyan mühüm birləşdirici ideoloji amillər sırasında İslamın da mədəniyyət və mənəviyyat konteksində öyrənilməsi məqsədilə yazılmışdır. |
| **5.** | **Azf 2967** | **Əliyeva, S.** Azərbaycan mədəniyyətində qadın fenomeni [Mətn] : monoqrafiya / Sədaqət Əliyeva ; elmi red. N. Mehdi ; Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Un-ti. - |

Bakı: Gənclik, 2017. - 275 s.

Kitabda əsas etibarı ilə Azərbaycan tarixində, mədəniyyətşünaslığında və ümumiyyətlə desək, ictimai siyasi həyatında qadının rolundan və müstəsna xidmətlərindən danışılmışdır. Tarixi inkişaf trayektoriyası üzrə mərhələ-mərhələ xronoloji ardıcıllıqla Azərbaycanlı qadınların keçdiyi həyat yolunun əsas nüanslarına toxunulmuş, bu və ya digər səbəbdən indiyə qədər işıqlandırılmayan bəzi məqamlara aydınlıq gətirilmişdir.

**6.** **AzK 6681** **Mədəniyyət: problemlər və** perspektivlər. Doktorant və gənc tədqiqatçıların XIII beynəlxalq elmi konfransının materialları [Mətn] = Культура: проблемы и перспективы = Culture: problems and perspektives the materials/ elmi red. M. Əlizadə. - Bakı : ADMİU, 2019. - 132 s.

**7.** **Azf 126 127** **Məmmədbağıroğlu, Ə.** XVII əsr Azərbaycan əlyazma kitabı : Poleoqrafiya və mətnşünaslıq məsələləri / Əli Məmmədbağıroğlu ; AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. - Bakı : Elm və təhsil, 2018. - 204 s.

Kitab XVII əsrdə köçürülmüş Azərbaycan əlyazma kitablarının paleoqrafik və mətnşünaslıq məsələlərinin araşdırılmasına həsr olunmuşdur. Bu mərhələdə köçürülmüş əlyazma kitabı nümunələrinin paleoqrafik xüsusiyyət-

ləri - cildi, kağızı, filiqranı, xətti, katibi, bədii tərtibatı, kolofonu, köçürülmə tarixi, yeri, əlyazma mətnlərinin tekstoloji aspektdən tədqiqi və kataloqlaşdırılması minillik kitab tarizimizin ayrı-ayrı yüzilliklərdə köçürülənləri ilə müqayisədə oxşar və fərqli tərəflərinin öyrənilməsinə imkan verir.

**8.** **AzK 6714** **Prezident İlham Əliyev** və mədəniyyət, 2013-2018 [Mətn] : 2 cilddə / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Prezident Kitabxanası", AzərTAc; layihənin rəh. Ə. M. Qarayev; red. heyəti: L. A. Məmmədova [və b.]; tərt.: L. A. Məmmədova, M. H. Əhmədov.

**I cild:** Qəbullar, nitqlər, çıxışlar, görüşlər və mərasimlər, səfərlər, müsahibələr.- Bakı: Nəşriyyat Evi, 2018.- 584 s.

**9.** **AzK 6715** **Prezident İlham Əliyev** və mədəniyyət, 2013-2018 [Mətn] : 2 cilddə/ Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Prezident Kitabxanası", AzərTAc; layihənin rəh. Ə. M. Qarayev; red. heyəti: L. A. Məmmədova [və b.]; tərt.: L. A. Məmmədova, M. H. Əhmədov.

**II cild:** Təbriklər, qanunlar, fərmanlar, sərəncamlar.- Bakı, 2018.- 440 s.

**10.** **Azf 6521** **Vasilyev, M.** Mədəni antropologiyaya giriş [Mətn] : dərs vəsaiti / M. Vasilyev ; rus dilindən tərc. ed. S. Əliyeva ; elmi red. N. Mehdi. - Bakı, 2018. - 172 s.

Vəsaitdə ən mürəkkəb sosial-mədəni birliklərdən biri olan entos haqqında anlayışın təhlili də daxil olmaqla, insanların bir araya gətirilməsi şəkli də nəzərdən keçirilir. Mədəniyyətdə sistem sərhədlərinin və mədəniyyət və irq, cəmiyyət və dil, cəmiyyət və coğrafi mühit, cəmiyyət və tarix, cəmiyyət və ərazi, etnos və dövlət kimi mühüm əhəmiyyət daşıyan qarşılıqlı əlaqələrin təhlilinə də diqqət yetirilmişdir.

**11.** **Azf 1488** **Zülfüqarlı, M.** Sovet dövrü heykəlləri: kulturoloji və siyasi təhlil [Mətn]: dərs vəsaiti / Məhərrəm Zülfüqarlı ; elmi red. K. Şükürov ; Azərbaycan Turizm və Menecment Universiteti. - Bakı : "İN-2017" MMC, 2017. - 93 s.

Dərs vəsaitində sovet dövründə Azərbaycanın iri şəhər, qəsəbə və kəndlərində abidələri ucaldılmış şəxslərin bir qisminin ictimai-siyasi fəaliyyəti və həmin abidələr haqqında qısa məlumat verilib.

**12.** **AzK 6723** **Azerbaijani multiculturalism** [Text]: textbook for higher education/ editors K. Abdulla, E. Najafov; trans. S. Nuriyev, F. Abdullayeva, S. Aliyev. - Baku: Şərq-Qərb, 2018. -

487 p.
Multiculturalism includes ethnic, racial, religious and cultural diversity and the values that underpin it.

13. **AzK 6724** **Azerbaijan and the** United Kingdom [Text] : 100 years of partnership/ Proj. direc. Lord David Evans, Rafiga Huseynzade. - Spain: Senta Publishing, 2019.- 118 p.

14. **AzK 6725** **Ganja** [Text] : City of Nizami = Gəncə: Nizami yurdu / Proj. man. Musa Marjanli. - Dubai: IRS Publishing House, 2019. - 206 p.
The history of Ganja is measured not by centuries but millennia, and archaeologistr are still arguing how many of them there have been.

15. **AzK 6726** **Treasures of Azerbaijan** [Text] = Les tresors de l`Azerbaidjan/ Proj. man. Musa Marjanli. - Dubai: IRS Publishing House, 2019. - 160 p.
The new book of the IRS Publishing House is dedicated to the cooperation between Azerbaijan and UNESCO and the country`s contribution to the preservation of the cultural heritage of mankind.

## Kitabxana-informasiya təminatı

16. **Azf 230** **Quliyev, O.** Azərbaycanda şəhər əhalisinə kitabxana-informasiya xidməti [Mətn] : monoqrafiya / Oruc Quliyev.- Bakı: Mütərcim, 2018.- 208 s.

Kitabda kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması, əhalinin intellektual potensialının və bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsi üçün yaradılan şəraitdən bəhs olunur.

17. **Azf 277 229 422** **Qurbanov, A.** Elektron kitabxanalar [Mətn] : dərs vəsaiti / Azad Qurbanov, Pərviz Kazimi, Oruc Quliyev; elmi red. A. M. Babayev ; Azərb. Respublikası Mədəniyyət Naz.-yi, C. Cabbarlı adına Respublika Gənclər Kitabxanası. - Bakı : MTM-İnnovation, 2018. - 300 s.

Dərs vəsaitində elektron kitabxana haqqında dünyanın aparıcı mütəxəssislərinin fikirləri verilmiş, elektron kitabxanaların təkamülü, funksiyaları, informasiya resursları ilə komplektləşdirilməsi, yaradılması metodikası, proqram-texniki təminatı kimi mövzular şərh olunmuşdur.

**18.** **AzK 6714** **Süleymanov, R.** Ulu öndər Heydər Əliyevin kitab və kitab nəşri haqqında müdrik fikirləri [Mətn] / Rasim Süleymanov. - Bakı, 2018. - 142 s.

Kitabda Azərbaycan elmini, mədəniyyətini və ədəbiyyatını dərindən bilən, onu böyük məhəbbətlə sevən və yüksək qiymətləndirən, xalqımızın ümummilli lideri, müstəqilliyimizin memarı, dünya şöhrətli ictimai-siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan kitab mədəniyyəti, kitabçılıq işi, kitab və onun nəşri məsələləri ilə əlaqədar dahiyanə və müdrik fikirləri verilmişdir.

## Muzey işi və abidələrin mühafizəsi

**19.** **Azf 2396** **Eyvazova, Y.** Muzey ekspozisiyası [Mətn]: dərslik / Yeganə Eyvazova; elmi red. M.Süleymanlı; rəy.: A. Əziz, Ü.Talıbzadə.- Bakı: ADMİU, 328 s.

Dərslikdə muzey fəaliyyətinin əsas istiqamətlərindən biri sayılan ekspozisiya işinin bütün aspektləri işıqlandırılaraq ətraflı şəkildə izahları aparılmışdır. İzahlar prosesində müəllif dünya və Azərbaycan muzeylərinin ekspozisiya fəaliyyəti üzrə təcrübələrinə istinadlar edərək bunların bəziləri haqda vizual təsəvvürlərin formalaşması üçün təsvirlərini də vermişdir. Dərlikdə mətndən əlavə, mövzuların izahını əyaniləşdirən 64 sayda şəkil, mu-

zeyin ekspozisiya işi ilə bağlı terminoloji lüğət, fənnin proqramı də öz əksini tapmışdır.

**20.** **Azf 1263** **Əliyeva, N.** Milli Azərbaycan Tarixi Muzeyi: tarix, elm və mədəniyyət [Mətn] : məqalə və məruzələr toplusu / Nərgiz Əliyeva ; tərt. ed. və ön söz müəl. S. Ə. Nemətzadə; AMEA, Azərb. Tarixi Muzeyi, Elm Tarixi İn-tu. - Bakı: Elm və təhsil, 2017. - 200 s.

Topluda muzeyin formalaşmasında öz elmi xidmətləri ilə müstəsna rol oynamış alimlərin elmi fəaliyyətləri, bu müəssisədə elmi-tədqiqat işlərinin təşkilinin vəziyyəti və digər araşdırmalar yer alıb. Azərbaycanın elm, mədəniyyət və tarixini əks etdirən eksponatlarla bağlı məlumatlar da nəşrdə əksini tapıb.

**21.** **AzK 6630** **Əsədova, M.** Bərpa və konservasiya [Mətn] : dərslik / Minaxanım Əsədova; elmi red. G. N. Qafarova. - Bakı: İN, 2017. - 168 s.

İxtisas fənni olaraq "Muzey materialının bərpası və konservasiyası" fənni tələbələrə bərpa və konservasiyanın özünəməxsus cəhətləri, Azərbaycan və dünya muzeylərində bərpa və konservasiyanın yaranması, inkişafı haqqında məlumat verilir. Bərpa və konservasiya anlayışlarının oxşar və fərqli cəhətləri izah edilir. Eləcə də ayrı-ayrı materialların tekstil, metal, şüşə, keramika, ağac və s. materialların mərhələli bərpa və konservasiyası izah edilir.

22. Azf 159 **Hacıyeva, Z.** Azərbaycan Dövlət Muzeyi [Mətn] : Azərbaycanda elmin inkişaf tarixindən 1920-1960 / Z.Ə.Hacıyeva; toplayan Z.Ə.Hacıyeva, A.B. Qəhrəmanova ; AMEA.- Bakı : Şərq-Qərb, 2012.- 150 s.

Monoqrafiyada XX əsrin 1920-1960-cı illərində Azərbaycanda muzeylərin inkişafı və formalaşması məsələləri araşdırılır. Azərbaycan Milli Tarixi Muzeyinin ekspozisiya və fondlarının inkişafı, genişləndirilməsi zəminində əməkdaşların üzləşdiyi problemlər müzakirə edilir.

23. AzK 3379 **Kərimova, S.** Muzey əşyalarının bərpası və konservasiyası [Mətn] : dərs vəsaiti / Sevil Kərimova.-Bakı : ADMİU, 2018. - 168 s.

Dərs vəsaiti mövcud proqrama müvafiq tərtib olunaraq muzey əşyalarının bərpa və konservasiya mərhələlərini tərif edir, dünya və milli təcrübəyə əsaslanır, fərqli sahələrə aid sənət əsərlərinin muzey mühitində qorunmasını təmin edən fəaliyyəti incələyir.

24. Azf 1274 **Məlikova-Qurbanova, E.** Muzeyşünasların nəzəri və təcrübi biliklərinin muzey vasitəsi ilə inkişafı [Mətn] : bakalavr və magistr təhsil pilləsində təhsil alan tələbələr üçün metodik vəsait / Elfira Məlikova-Qurbanova; Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. - Bakı : Elm, 2019. - 108 s.

Metodiki vəaitdə respublikada fəaliyyət göstərən muzeylərin, o cümlədən ADMİU-nun Kulturologiya fakültəsinin tərkibində fəaliyyət göstərən muzeyşünaslıq kafedrasının əhəmiyyətini önə çəkərək, muzeyşünas kadrların universitetdə təhsil aldığı müddətdə muzey fəaliyyəti ilə əlaqəli işin mühüm faktorları dərindən təhlil edilir və bu problemin uğurlu həlli üçün təkliflər verilir.

25. **C 332** **Muzeyşünaslığın tədrisi problemləri** [Mətn]: II Respublika elmi konfransın materialları / Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.- Bakı: ADMİU, 2018.- 268 s.

Topluda muzey işi sahəsində emi-nəzəri və təcrübi əhəmiyyət kəsb edən müxtəlif məqalələr toplanmışdır. Muzeyşünaslıq üzrə elmi-tədqiqat işi olan bu məqalələrə rus və ingilis dillərində qısa xülasə və açar sözlər də daxil edilmişdir.

26. **C 368** **Muzeyşünaslığın tədrisi problemləri** [Mətn]: III Respublika elmi konfransın materialları/ Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.- Bakı: ADMİU, 2019.- 254 s.

Nəşrdə muzey işi sahəsində emi-nəzəri və təcrübi əhəmiyyət kəsb edən müxtəlif məqalələr öz əksini tapmışdır. Muzeyşünaslıq üzrə elmi-

tədqiqat işi olan bu məqalələrə rus və ingilis dillərində qısa xülasə və açar sözlər də daxil edilmişdir.

27. **AzK 6817** **Karabakh** [Catalog]: ancient and beautiful = Карабах: древний и прекрасный/ Proj. man. Musa Marjanli. - Dubai: IRS Publishing House, 2019. - 95 p.

This book opens a series of small-format publications dedicated to both Karabakh and other regions of Azerbaijan.

## Fəlsəfə, Psixologiya

28. **AzK 6801** **Datta, M.** Qandinin liderlik fəlsəfəsi [Mətn]/ Mahatma Datta; Milli Fikir Mərkəzinin Tərcümə şöbəsi. - Bakı : Kitabıstan, 2017. - 94 s.

Kitabda Hindistanın ruhani və siyasi lideri olan Mahatma Qandinin həyat fəlsəfəsi və yaradıcılığı, yazdığı kitablar, Hindistanın azadlığı üçün başlatdığı hərəkatın mənəvi tərəfinin əhəmiyyəti və liderlik xüsusiyyətləri barədə məlumatlar yer alır.

29. **Azf 1423** **İsgəndərov, İ.** Təşkilati davranış və menecment psixologiyası [Mətn] : dərs vəsaiti / İsrayıl İsgəndərov; elmi red. M.Əliyeva ; AR Mədəniyyət və Turizm Naz-yi, Azərb. Turizm və Menecment Un-ti / İ. İsgəndərov. - Bakı : İN-2017, 2017. -381 s.

Bakalavr pilləsi üzrə təhsil alan tələbələr üçün bu dərs vəsaiti təşkilat və menecmentlə bağlı biliklərin təşkilatda təsdiq edilməsində ortaya çıxan dinamik prosesi əks etdirir.

30. **AzK 3846** **Qandi, M.** Bütün insanlar qardaşdır [Mətn] / Mahatma Qandi; red. M Kazımov.- Bakı : Qanun, 2015. - 248 s.
Oxucunun mənəvi dünyasını dərindən təsirləndirəcək olan bu kitabda tarixin ən böyük müəllimi olan Qandinin düşüncələri toplanmışdır.

31. **AzK 6652** **Muradzadə, V.** Yaradıcılıq qabiliyyətləri [Mətn] / Vasif Muradzadə. - Bakı : Elm və təhsil, 2014. - 278 s.
Kitabda insan fəaliyyətinin mühüm istiqamətlərindən biri olan əqli yaradıcılığı ilə bağlı ətraflı məlumatlar verilir.

32. **AzK 3626** **Psixologiya** [Mətn] : ali pedaqoji məktəblərin bakalavr pilləsi üçün dərslik / elmi red.: S.İ.Seyidov, M.Ə. Həmzəyev. - Bakı : Nurlan, 2007. - 700 s.
Dərslikdə "Psixologiya" proqramına (2005) müvafiq olaraq psixologiyanın predmeti və metodları, fəaliyyət və ünsiyyət, şəxsiyyət və qrupların psixologiyası, psixi proseslər və hallar, şəxsiyyətin fərdi psixi xassələri, yaş və pedaqoji psixologiyanın predmeti və vəzifə-

ləri, məktəbə daxil olanadək, kiçik məktəb yaşı, yeniyetməlik və ilk gənclik yaşı dövrlərində psixi inkişafın əsasları, tərbiyə, təlim, pedaqoji fəaliyyət və müəllim şəxsiyyəti psixologiyası, məktəbə psixoloji xidmətin əsasları psixologiya elminin müasir nailiyyətlərinə uyğun şəkildə öz əksini tapmışdır.

33. AzK 3864 **Səfiyeva, F.** Bir ömrün iziylə [Mətn]: Heydər Hüseynovun anadan olmasının 110 illiyinə/ Fəridə Səfiyeva; red. N. Cəfərov.- Bakı: Elm, 2018.- 296 s.

Kitab Azərbaycan fəlsəfə tarixinin banisi, milli fəlsəfə və ictimai fikir tarixi haqqında ilk fundamental əsərin müəllifi Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti akademik Heydər Nəcəf oğlu Hüseynovun həyat və yaradıcılığına həsr olunmuşdur. Nadir arxiv sənədləri, akademikin həmkarlarının, tələbələrinin, ailə üzvlərinin xatirələri əsasında yazılan kitabda bu günə qədər ictimaiyyətə məlum olmayan bir çox məqamlara aydınlıq gətirilir.

34. К 2454 **Ахмедова Хавер.** Роль искусства в процессе глобализации [Текст]/ Хавер Ахмедова ; науч. ред. Т.Гаджиев ; рецен.: М. Керимов, М.Гаджиева. - Баку : Элм, 2011. - 172 с.

Талантливый ученый Хавер Ахмедова

своими теоретическими изысканиями в области искусства в результате многолетних исследований впервые в науке раскрыла механизм формирования общественной мысли.

## İctimai və humanitar elmlər

35. **Azf 7792** **Ələkbərov, U.** İnklüziv inkişafın idarə edilməsinin əsasları [Mətn] : ali məktəblər üçün dərslik / Urxan Ələkbərov; red. A. Əlizadə. - Bakı : Təhsil, 2018. - 216 s.

Dünya ölkələrinin inklüziv inkişaf göstəricilərinin 2018-ci ildə beynəlxalq təşkilatlar tərəfindən aparılan müqayisəli təhlilindən aydın olur ki, bu sahədə uğurlar, əsasən, dövlət idarəçiliyində innovativ texnologiyaların istifadəsi ilə bağlıdır. Ölkənin inklüziv inkişafı üçün mövcud iqtisadi potensiyaldan ən yüksək istifadə səmərəliliyini təmin edən Azərbaycan Respublikasının uğurlu örnəyi buna sübutdur. Bu tendensiyanın gələcəkdə də qorunması davamlı inklüziv inkişafın monitorinqi, planlaşdırılması və idarə edilməsi sahəsində bilik və bacarıqların formalaşdırılması və daim təkmilləşdirilməsini tələb edir. Hazırkı dərslik bu hədəfə nail olunmasına xidmət edir və dünyada analoqu yoxdur.

36. **Azf 1395** **İbrahimli, X.** Politologiya [Mətn] : dərslik / Xaləddin İbrahimli. - Bakı : Ayrapa, 2013. - 216 s.

Kitabda siyasət haqqında elmi tədqiqat obyektinə daxil olan siyasət, siyasi hakimiyyət, siyasi fikir tarixi, cəmiyyətin siyasi sistemi və onun fəaliyyət mexanizmi, dünya inkişafının siyasi doktrinaları və s. haqqında geniş məlumat verilir.

37. **AzK 6700** **İlham Əliyev-on** beş illik prezidentlik dövrünün uğur salnaməsi [Mətn]: (2003-2018) / burax. məs. R. Mehdiyev ; tərt. müəl.: Ə. Həsənov (ön söz.), A. Aslanov; dizayner M. Əliqızı. - Bakı: Zərdabi, 2018.- 183 s.

Kitabda zəngin faktlar əsasında İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi on beş illik fəaliyyəti dövründə ölkənin dinamik inkişafının dolğun mənzərəsi yaradılır. Azərbaycanda aparılan köklü islahatlar sayəsində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, iri transmilli enerji və nəqliyyat layihələrinin uğrunda reallaşdırılması, sosial-mədəni, ordu quruculuğu və xarici siyasət sahəsində əldə edilən nailiyyətlər dəlillərlə əsaslandırılır.

38. **Azf 1357** **Qeyri-hökumət təşkilatlarının** menecmenti [Mətn] : metodik vəsait / E. Aslanov, İ. İsgəndərov, E. Hacıyev, S. Məmmədov; elmi

red. G. Həsənova; AR Təhsil Naz.-yi, AR Mədəniyyət və Turizm Naz.-yi, Azərb. Turizm və Menecment Un-ti.-Bakı: İN, 2017.-267 s.
Metodik vəsaitdə QHT-lərin fəaliyyətinin mahiyyəti, fəlsəfəsi və təkamülü prosesi, qanunvericilik əsasları, QHT-lərin yaradılması, qeydiyyat prosesi, təşkilat daxili idarəetmə mexanizmləri kimi mövzular öz əksini tapıb.

**39.** **Azf 1338** **Menecmentin əsasları** [Mətn] : dərs vəsaiti / E. Aslanov və b. ; red. İ. İ.İsgəndərov ; Azərbaycan Turizm və Menecment Uni.-ti.- Bakı : İN, 2017. - 634 s.
Vəsait Azərbaycan Turizm və Menecment Universitetinin bakalavr pilləsi üçün faktiki ayrılmış dərs saatlarının miqdarına uyğun tərtib edilmiş, uzun illərdir həmin universitetdə istifadə edilən və sınaqdan keçirilmiş tədris materialları əsasında hazırlanmışdır.

**40.** **AzK 6622 6623 6624 6625 6626 6627 6628 6629** **Multikulturalizmə giriş** [Mətn] : ali məktəblər üçün dərslik / Kamal Abdulla və b. - Bakı: Şərq-Qərb, 2019. - 432 s.
Kitab alternativ elmi-kütləvi ədəbiyyat qismində, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində təhsil alan tələbələrin, həmçinin geniş oxucu auditoriyasının multikulturalizm ideyaları haqqındakı mövcud elmi-nəzəri biliklərini artırmaları məqsədilə tərtib edilmiş-

dir. Kitabda multikulturalizm ideyalarının təşəkkülü və inkişafı, onun müasir dünyanın müxtəlif ölkələrində dövlət siyasəti kimi özünü təsdiq etməsi, cəmiyyətin ictimai-fəlsəfi və ədəbi-bədii fikir tarixində tolerant və multikultural bəşəri ideallların təkamülü, çağdaş Azərbaycan multikulturalizminin spesifik xüsusiyyətləri və multikulturalizm siyasətinin müasir dövrdə mövcud olan problemləri və perspektivləri ardıcıl və metodiki şəkildə təhlil olunmuşdur.

**41.** **Azf 1345** **Rüstəmov, N.** Turizmdə informasiya texnologiyalarının tətbiqi [Mətn] : dərs vəsaiti / N. Rüstəmov, F. Ələsgərova, O. Mazanova. - Bakı: Elm və təhsil, 2011.- 422 s.

Kitabda turizm sahəsində tətbiq olnunan informasiya texnologiyalarının müxtəlif istiqamətlərini əhatə edən mövzular verilmişdir.

**42.** **Azf 1404** **Turizm sektorunda çalışanlar** üçün məlumat kitabçası [Mətn]/ Aslanov E. və b.- Bakı: İN, 2011.- 142 s.

Kitabda turizm nəzəriyəsinin əsasları, ümumdünya Turizm Təşkilatının tövsiyələri, beynəlxalq konvensiyalar, milli hüquqi aktların prinsip və ənənələri aspektlərində turizmin əsas termin və anlayışları şərh edilir. Azərbaycan və beynəlxalq turizm qanunvericiliyinə, həmçinin formalaşmış turist xidməti-

nin beynəlxalq standartlarına, turizm firmalarının turlar və transturlar biznesi sahəsində beynəlxalq və milli turizm təşkilatlarının çoxillik təcrübəsinə əsaslanan işin təşkili prinsipləri izah edilir.

43. **Azf 1374** **Turizmin əsasları** [Mətn] : ali məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik/ B. Bilalov və b.; Azərbaycan Turizm və Menecment Universiteti. - Bakı : QHT nəşriyyatı, 2015. - 492 s.

Dərslik 10 fəsildən, 57 paraqrafdan ibarətdir. Dərslikdə turizm elminin predmeti, elmi-nəzəri əsasları, tədqiqat metodları, dünyada və həmçinin Azərbaycanda inkişaf tarixi haqqında ətraflı məlumat verilmişdir.

44. **AzK 6805** **Ilham Aliyev** [Text]: 15-year presidential success strory (2003-2018)/ A. Hasanov, A. Aslanov; R. Mehdiyev; designer M. Aligizi. - Baku: Zardabi, 2018. - 183 p.

The book creates a rich factual and comprehensive picture of the dynamic development of the country over 15 years of Ilham Aliyev's activity as President of the Republic of Azerbaijan.

45. **К 2483** **Алакбаров, У.** Основы управления инклюзивным развитием: учебник для высших учебных заведений / Урхан Алакба-

ров ; ред. А. Ализаде. - Баку: Təhsil, 2018. - 215 с.

Инклюзивное развитие, обеспечивающее всестороннее развитие государства и благосостояние всех граждан страны, является одним из основных современных приоритетов государственного управления. Сравнительный анализ показателей инклюзивного развития стран мира, проведенный международными организациями в 2018 году, показывает, что успех в этой области базируется, в основном, на использовании инновационных технологий в государственном управлении.

**46.** **К 2504** **Ильхам Алиев-пятнадцать** лет на посту Президента. Летопис достижений [Текст] : (2003-2018)/ отв. за вып. Р. Мехтиев ; авт-сост.: А. Гасанов (предисл.), А. Асланов ; дизайнер М. Аликызы

Баку: Zərdabi, 2018. - 183 с.

В книге на основе многочисленных факторов представлена полная картина динамического развития страны за пятнадцатилетний период деятельности Ильхама Алиева на посту Президента Азербайджанской Республики. Убедительными аргументами обоснованы успехи, достигнутые в Азербайджане благодаря проведению коренных реформ, диверсификации

экономики и развитию ненефтяного сектора, последовательной реализации гигантских транснациональных энергетических и транспортных проектов, достижения в социально-культурной сфере, военном строительстве и во внешней политике.

47. К 2509 **Мехтиев, Р.** Григорианская церковь как инструмент шпионажа против Сефевидского государства : XVII- первая четверть XVIII вв. / Рамиз Мехтиев. - Баку: Шарг-Гарб, 2018. - 159 с.

Книга академика Р. Э. Мехтиева "Григорианская церковь как инструмент шпионажа против Сефевидского государства" является первой попыткой осмысления и подробного освещения разведывательной и политико-идеологической деятельности Григорианской церкви.

## Arxitektura

48. Azf 1496 **Əfəndiyev, R.** Nuxa qəzasında olan asari ətiqələr haqqında [Mətn] : bələdçi kitabı / Rəşid Əfəndiyev ; əski əlifbadan çevirən N.Süleymanova ; elmi red. İ. Əliyev ; AR Mədəniyyət və Turizm Naz-yi, Azərb. Turizm və Menecment Un-ti.- Bakı, 2017.- 22 s.

Azərbaycan dilində yazılmış əski çap kitablarından biri də Rəşid bəy Əfəndizadənin "Nuxa

qəzasında olan asari-ətiqələr haqqında" adlı kitabıdır. Rəşid bəy xalqımızın ən qədim yurdlarından sayılan və türk xalqlarının yerləşməsi tarixi çox keşmişlərə gedib çıxan Nuxa qəzasının abidələri ilə maraqlanmış və "Nuxa qəzasında olan asari-ətiqələr" adlanan bələdçi kitabını tərtib etmişdir.

49. **AzK 3509** **Əliyev, E.** Azərbaycanın sehirli abidələri [Mətn] / Elçin Əliyev, N.Əlizadə ; rəs.N.Hacıyev ; Azərb.dilində mətnin red.: N.Əbdülrəhmanlı, T.Zamanova ; bədii tərt.: N. Novruzov.- Bakı, 2014.- 181 s.
"Azərbaycanın sehirli abidələri" kitabında 40-dan artıq memarlıq abidəsi haqqında maraqlı hekayətlər yer alıb. Kitab Azərbaycanda dərc edilən ilk unikal nəşrdir.

50. **AzK 1249** **Fətullayev-Fiqarov, Ş.** Qacarlar dövründə İranda şəhərsalma və memarlığın inkişafı / Şamil Fətullayev-Fiqarov ; lay. rəh. E.Ə.Qasımzadə; AR Memarlar İttifaqı.- Bakı : Şərq-Qərb, 2013. - 356 s.
Monoqrafiyada Qacarlar dövründə İranda şəhərsalma və memarlığın inkişafından bəhs olunur.

51. **Azf 6905** **Sisoyev, V.** Bakı dairəsində olan asari-ətiqələrə bələdçi [Mətn] / Vasiliy Sisoyev; əski əlifbadan çev. N.Süleymanova ; elmi red.

İ.Əliyev ; Azərb. Turizm və Menecment Un-ti.-Bakı, 2017.- 32 s.
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda elm və mədəniyyət tarixmizin öyrənilməsi üçün mühüm mənbələr sayılan on minə yaxın müxtəlif dillərdə yazılmış daşbasma və əski çap kitabları qorunmaqdadır. Bu kitablar içərisində əski əlifba ilə Azərbaycan dilində yazılmış əsərlər də mövcuddur.

## Rəssamlıq

**52.** **AzK 6614** **Arif Əziz.** "Bəyaz dövr"- Arif Əzizin "özünəməxsus" təsviri sənəti [İzomaterial] / Arif Əziz; red. A.Sultanov; Koord. A.Heydərova; Mətnin müəl. A.Məmmədova ; dizayn F.Əliyev ; fotoqraf F.Qədirli, R.İsmayılov. - İstanbul, 2018. - 243 s. - (Mətn Azərbaycan, rus, ingilis və fransız dillərindədir).
Müasir Azərbaycan incəsənətində Arif Əzizin yaradıcılığı xüsusi, müstəsna yerə malikdir. Hələ keçən əsrin 70-ci illərindən başlayaraq A.Əziz, dizayn, dekorativ-tətbiqi sənət, bədii tərtibat, kitab qrafikası, teatr dekorasiyası, moda, rəngkarlıq sahələrində çalışaraq, Azərbaycan incəsənətinin müasir vəziyyətinin formalaşmasına böyük təsir göstərmişdir. Kitabda Xalq rəssamı A.Əzizin zəngin ecazkar yaradıcılığını təcəssüm etdirən əsərlər əks olunub.

53. **AzK 3456** **Azərbaycanın İpək Xəzinəsi**: XVI-XVIII əsr tikmələri [İzomaterial] / ideya müəl. Ç.Fərzəliyev ; elmi red. T.Əfəndiyev ; məsl.: N.Rəhimova, X.Əsədova, R.Quliyeva ; əlaqələndirici Q.Məlikova ; dizayn S.Sadıqova, K.Bayramzadə ; foto A.Yusifov / AR Mədəniyyət və Turizm Naz-yi, Azərb. Milli İncəsənət Muzeyi.- 2017.- 48 s.

Dünya alimlərinin nəzərini özünə cəlb edən sözügedən tikmələr dədə-babalarımızın, əcdadlarımızın yüksək sənət məharətindən, incə zövqündən, fitri sənətkar səriştəsindən xəbər verir.

54. **AzK 6613** **“Biz azərbaycanlıyıq”** [Kataloq] : xaricdə yaşayan azərbaycanlı rəssamların kataloqu/ bur. məs. V.Hacıyev, lay.müəl. T.Rzayev, red.: N.Qurbanov, E.Miraləm, tərt. L.Həmzəyeva.- Bakı : Adventa, 2011.-316 s.

Təqdim olunan kataloqda xarici ölkələrdə yaşayan azərbaycanlı rəssamların bioqrafiyaları və rəsm əsərlərindən nümunələr toplanmışdır.

55. **AzK 6420** **Dekorativ tətbiqi sənətin** müasir inkişaf istiqamətləri [Mətn] : magistr pilləsi üçün hazırlanmış dərs vəsaiti / tərt.ed. Sevil Kərimova. - Bakı, 2019. - 96 s.

Dərs vəsaiti mövcud proqrama müvafiq tərtub olunaraq dekorativ-tətbiqi sənətin yeni istiqamətlərinin formalaşma aspektlərini izah edir,

dünya və milli təcrübəyə əsaslanaraq prosesin mərhələlərini və regional xüsusiyyətlərini tərif edir.

**56.** **AzK 6709** **Elm, mədəniyyət və** incəsənətin qarşılıqlı əlaqəsi və müasir cəmiyyətin inkişafında rolu [Mətn] : III respublika elmi-nəzəri konfransın materialları/ ADMİU ; tərt. ed. Aslan Xəlilov; məsul katib G.Seyidəhmədli. - Bakı: ADMİU, 2019. - 378 s.

**57.** **AzK 6206 6207 6208 6209** **Əhmədova, X.** İncəsənət tarixi [Mətn] : incəsənət təmayüllü ali tədris məktəbləri üçün dərs vəsaiti / Xavər Əhmədova ; elmi red. T.Hacıyev. - Bakı, 2018. -192 s.

Dərs vəsaitində qədim dövrdən müasir dövrə qədər olan incəsənət tarixinə nəzər salınır. Azərbaycan və dünya incəsənət tarixində olan bədii istiqamətlər, cərəyanlar və sənət növləri haqqında məlumat verilir.

**58.** **AzK 3424 3425** **Maestro & Artists** [Kataloq] / ideya müəl. və lay.rəhb. Arif Əziz ; ön söz C.Mahmudova ; red. A.Sultanov ; art-direktor A.Əziz-Məmmədova ; foto F.Qədirli, dizayn F.Əliyev ; koord. A.Heydərova ; AR Mədəniyyət Naz-yi, ADMİU, Dünya Rəssamlıq Aka-sı. - Bakı: Çaşıoğlu, 2019.-196s.

Maestronun fərdi üslubu, daima yaradıcılıq transformasiyalarına və bədii eksperimentlərə

meyliliyi, zamanın və məkanın təsirindən səmərəli istifadəsi, fəaliyyətinin istər manera, istər texniki aspektdə, çoxsahəliliyi və ən əsası, sonsuz dinamikası, çevikliyi və müasirliyi mütləq tərzdə onun sənətinin və şəxsiyyətinin aktuallığını müəyyən edir.

**59.** **Azf 1427 1428** **Süleymanlı, N.** Miniatürlü əlyazmalar kataloqu [İzomaterial] / Nailə Süleymanlı ; AMEA-nın Məhəmməd Füzuli ad. Əlyazmalar İns.-tu.- Bakı: Şəms, 2019. - 97 s.

İlk dəfə olaraq hazırlanan kataloqda AMEA-nın Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilən yüksək bədii zövqlə hazırlanmış miniatürlü əlyazma kitabların elmi-paleoqrafik təsviri verilmişdir. Kataloq mədəniyyət, incəsənət, tarix və ədəbiyyat kimi elmi sahələrin tədqiqatçıları və maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**60.** **AzK 6813** **Aliyev, M.** Evrenin çiçekleri [İzomaterial] / Muhammed Aliyev; Gaziantep Üniversitesi Güzel Sanatlar Fakültesi. - 2017.

**61.** **AzK 6814** **Aliyev, M.** Halfeti nağmeleri [İzomaterial] / Muhammed Aliyev; Gaziantep Üniversitesi Güzel Sanatlar Fakültesi. - 20 s.

**62.** **AzK 6815** **Aliyev, M.** Hayatımdaki kareler II [Resim] / Muhammed Aliyev, Gaziantep Üniversitesi

Güzel Sanatlar Fakültesi; kataloq tasarım : B.Bozhüyük. - 14 s.

63. **AzK 6615** **Aziz, Arif.** Beyaz [İzomaterial] / Arif Aziz. - İstanbul, 2018.- (Mətn türk və ingilis dillərindədir).

64. **AzK 6408** **Aziz, Arif.** Beyaz köprü [İzomaterial] = White brige/ Arif Aziz. - İstanbul: Teas Press, 2019. - 175 s.

65. **AzK 6836** **“Dr. Yaşar Erdemir Armağanı** (İn Honour of Dr Yaşar Erdemir)” III uluslararası türk sanatları, tarihi və folkloru kongresi / sanat etkinlikleri = III international turkic arts, history and folklore congress / art activities / Miras Kültürel Mirasın Araştırılmasına Destek Dernegi, Jamia Millia İslamia Üniversitesi Güzel Sanatlar Fakültesi, Selcuk Üniversitesi Türk El Sanatları Araştırma ve Uygulama Merkezi.- 2015. - 542 s.

66. **AzK 6837** **Fikret Haşimov** / Atatürk Universitesi Güzel Sanatlar Fakültesi ; Kaynak Derleme və Belgeler : F.Haşimov, M.L.Öztürk, R.Altundağ. - Erzurum.

67. **К 2526** **Аманова, Солмаз.** Анатомия в живописи и поэзии [Текст] : шедевры мирового искусства / Солмаз Аманова ; под ред.

В.Шадлинского. -Баку: Гянджлик, 2001.-208 с.

"Анатомия и живописи и поэзии" - это великолепная попытка в одной книге показать взаимосвязь медицины, живописи и поэзии. Из покон веков выдающиеся художники, прежде чем рисовать, досканально изучали анатомию человека. К ним можно отнести Леонардо Да Винчи, Рембрандта Ван Рейна, а из современных художников-Рахмана Шыхалиева, Никаса Сафронова... В этой книге даются сведения об известных художниках, анатомах и поэтах.

**68.** **К 2446** **Гасанзаде, Д.** Зарождение и эволюция Тебризской миниатюрной живописи. (XIV-XVI века). Кн. 1: Тебризская миниатюрная живописи XVI века [Текст] : монография /Джамиля Гасанзаде ; отв. ред. Р. С. Эфендиев.- Баку: Тэкнур, 2016.-
431 с. ил., портр..

Монография Дж.Гасанзаде "Зарождение и эволюция тебризской миниатюрной живописи (XIV-XVI века) является первым трудом, который рассматривает тебризский стиль миниатюры от его зарождения в конце XIII в. до конца XVI в., т. е. важнейшие периода его развития: от ильханидского до сефевидского. В зарубежном искусство-

знании эволюция тебризской школы миниа-тюрной живописи рассматривалась наряду с другими: гератской, ширазской и другими, или же в контексте истории миниатюрной живописи всего Ближнего Востока. Она состоит из двух книг. Первая охватывает сложнейший и почти не изученный период -XIV век. Вторая посвящена двум последующим векам развития школы: XV и XVI, когда в период последнего взлета в XVI веке школа вновь стала художественной метрополией всего Мусульманского Востока, распространив свое влияние на Османскую Турцию и Могольскую Индию,не говоря уже о школах современной им Сефевидской Империи.

**69.** **К 2457** **Мир-Багирзаде, Ф.** Творчество народного художника Азербайджана Тогрула Нариманбекова [Текст] : монография / Фарида Мир-Багирзаде ; науч. ред. К.Керимов ; рецен. Н.Мехти, Т.Байрамов. М-во культуры и туризма Азерб. Респ..- Баку: Aspoliqraf, 2014.- 191 с.: цв. ил., портр.

Монография посвящена жизни и деятельности народного художника Азербайджана, СССР, лауреата Государственных премий Азербайджанской Республики, СССР Т.Нариманбекова. В книге всесторонне изучена творческая биография

художника, который прошёл плодотворный, созидательный путь, воссоздав в своей станковой и монументальной живописи, книжной иллюстрации, сценографии ёмкий и зримый образ родного края.

**70.** **AzK 6823** **Tağıyeva, R.** Alfombras de Azerbaiyán en la interseccion de civilizaciones [Texto] / Roya Tagiyeva ; trad. T. Belikow de Theodotoff ; edc. P. Botta, G. Khidirova ; Agencia Azerbaiyana para el Desarrollo İnternacional Ministerio de Asuntos Exteriores (AIDA), Embajada de la Republica de Azerbaiyán en Argentina. - Buenos Aires: Ediciones de Azerbaiyán, 2019.- 144p.

La alfombra tradicional, tanto en su funcion utilitaria como en la simbolica, es la quintaesencia de la experiencia de la cultura de Azerbaiyan.

## Musiqi

170. AzK 6393 6394 6395 6396 6397 6398 6399 6400 **Barabaş, N.** Müasir rus teatrı : XX əsrin sonu - XXI əsrin əvvəlləri [Mətn] dərs vəsaiti / Natalya Barabaş; tərc. ed. R.Mustafayeva; elmi red.V.Qafarov.- Bakı : ADMİU, 2019. - 128 s.

Dərs vəsaitinin "Moskva teatrları", "Sankt-Peterburq teatrları", "Rusiyanın müasir əyalət teatrları", "Rejissor və pedaqoq Aleksandr Kuzin", "Teatr baş qəhrəman axtarışında" adlı

6401 6402 fəsillərində müasir rus teatrında söz sahibi olan teatrlar və rejissorlar haqqında, onların yaradıcılıq istiqamətləri və axtarışları, eksperimentləri və tamaşaları barəsində geniş elmi şərhlər yer almışdır.

**171.** **AzK 6542 6543** **Burcəliyev, A.** Məqalələrim, resenziyalarım, oçerklərim və müsahibələrim. Cild 1 [Mətn] : (1989-2018) / Anar Bürcəliyev ; elmi red. X.Gəncəli ; red. E.Nağıyev. - Gəncə : Aytac, 2018. - 440.

Kitab 1989-cu ildən 2017-ci ilədək olan dövrü əhatə edir. Kitabda müsahibələrin bir qisminin toplumu verilmişdir. Dərgidə toplanan materiallar teatrşünasların həmçinin sənətşünasların ilkin məlumat və araşdırmaları üçün bir mənbə hesab edilə bilər. Bu mənbə bir tərəfdən ümumazərbaycan teatr tarixinin tədqiqinə ilkin araşdırma ola biləcəksə, digər tərəfdən də aktyor, rejissor və teatrlarımızın sənət yollarının öyrənilməsi baxımından əhəmiyyətlidir.

**172.** **AzK 6546 6547** **Burcəliyev, A.** Onun dünyası [Mətn] : Fəridə Əlyarbəyli-95: monoqrafiya / Anar Bürcəliyev; elmi red. X.Gəncəli ; red. E.Nağıyev ; ön söz. A. Babayev. - Gəncə : Aytac , 2019. - 150 s.

Teatrşünas Anar Burcəliyevin "Onun dünyası" adlı kitabı şairə-dramaturq F.Əlyarbəyli-

nin həyat və yaradıcılığına həsr olunub. Kitabda onun yaradıcılığı və eləcə də fəaliyyəti geniş bir şəkildə işıqlandırılmaqla təhlil olunmuşdur. Monoqrafiyada toplanan materiallar teatrşünasların eləcə də sənətşünasların ilkin məlumat və araşdırmaları üçün bir mənbə hesab edilə bilər.

**173.** **AzK** **Çexov, M.** Peşəkar aktyorluq dərsləri [Mətn]/
**2739** Mixail Çexov ; tərc. F. Abdullayev ; red. Y.
**2740** Əliyev ; Azərbaycan Respublikasının Nazirlər
**2863** Kabineti yanında Tərcümə Mərkəzi. - Bakı :
**2864** Azərbaycan Tərcümə Mərkəzi, 2018. - 208 s.
**2866** Kitab müəllifin ABŞ-da yaradıcılıq studiya-
**6154** sında oxuduğu mühazirələrin əsasında hazırlanıb. M.Çexov aktyor peşəkarlığının heç bir növü üzrə hazır reseptlər təqdim etmir, sadəcə bu çətin peşə sahiblərinə sənətin zirvələrinə aparan yolları göstərir, dəyərli məsləhətlər verir, gənc aktyorlara incəlikləri başa salır.

**174.** **AzK** **Əlizadə, M.** Dördüncü ölçünün rəngləri
**6087** [Mətn] / Məryəm Əlizadə ; elmi red. İ.Rəhim-
**6088** li.- Bakı : E.L., 2008. - 445 s.
**6166** Kitab Azərbaycan milli teatr sənətinin parlaq
**6167** simalarından olan Tofiq Kazımovun rejissor yaradıcılığını milli prosesinin Zaman kontekstində araşdıraraq, yaradıcı şəxsin inkişaf problemlərini teatr sənətinin fundamental məsələləri ilə üzvi şəkildə sintezləşdirməyə yönəlir.

175. AzK 6496 6611 **Həsənova, Ş.** Lütfiyar İmanov [Mətn] : monoqrafiya / Şəhla Həsənova ; baş red. G.Cəfərova; burax. məsul S.İsmayılova ; dizayn. Z.Abbasov. - Bakı : Şərq-Qərb, 2017. - 104 s.

Monoqrafiya görkəmli müğənni, Xalq artisti L.İmanova həsr olunmuşdur. Müğənninin şəxsi arxivində saxlanılan materiallar əsasında yazılmış bu kitabda L.İmanovun həyat yaradıcılığına aid sənədlərin əksəriyyəti ilk dəfədir ki, işıq üzü görür.

176. AzK 7092 **"Xəzər balladası"- 50.** Fransada Azərbaycan baleti günləri [Mətn] / Tofiq Bakıxanov ; tərt. ed. Z. Qafarova ; red. və ön söz müəl. R. Hüseynov ; AR Mədəniyyət Naz-yi. - Bakı : Renessans-A, 2018.-199 s.

Xalq artisti, Şöhrət ordenli sənətkar Tofiq Bakıxanovun qələmə aldığı, Xəzər nefçilərinin həyatını Avropanın əksər ölkələrində təbliğ etmiş "Xəzər balladası"nın 50 yaşı tamam oldu. Bu kitab məhz "Xəzər balladası"nın keçdiyi yol barədədir.

177. AzK 3279 6494 **İsrafilov, İ.** Adil İsgəndərov [Mətn] : monoqrafiya / İsrafil İsrafilov ; burax. məsul S.İsmayılova ; baş red. G.Cəfərova ; dizayn Z.Abbasov. - Bakı : Şərq-Qərb, 2018. - 160 s.

Monoqrafiyada Azərbaycan mədəniyyətinin görkəmli xadimi, tanınmış teatr və kino rejissoru, pedaqoq və aktyor A.İsgəndərovun sənət

yolu araşdırılır. Burada milli səhnəmiz repertuar, poetika, aktyor ifaçılığı, rejissura məsələləri Adil İsgəndərovun yaşadığı dövrün mühiti və onun yaradıcılığı kontekstində dəyərləndirilir.

**178.** **AzK 6492 6612** **Kuroçkina, S.** Fatma Muxtarova [Mətn] / Svetlana Kuroçkina; tərc.ed. T.Vəliyev ; baş red. G. Cəfərova ; burax. məsul S. İsmayılova; dizayn. Z. Abbasov.- Bakı : Şərq-Qərb, 2017. - 144 s.

Yenidən işlənərək oxucuların ixtiyarına verilmiş bu kitabda gözəl səsə, yüksək aktyorluq məharətinə malik olan F. Muxtarovanın həyat yoluna nəzər salınmış, səhnədə oynadığı rollar, xüsusən "Karmen" tamaşasındakı debütü oxucuların nəzərinə çatdırılmışdır.

**179.** **AzK 6498 6610** **Qaraca, B.** Hüseyn Ərəblinski [Mətn] / Bəxtiyar Qaraca ; burax. məsul S. İsmayılova ; red. Q.Təbiboğlu ; baş red. Ü.Məmmədova. - Bakı : Şərq-Qərb, 2017. - 128 s.

Azərbaycanda peşəkar teatrın formalaşması və inkişafından söz düşəndə adı ön sırada çəkilən şəxsiyyətlərdən biri də H.Ərəblinskidir. Milli teatrımızın ilk tragik aktyoru olan bu böyük sənətkarın həyat və yaradıcılığı, həmçinin faciəli ölümü o dövrdə olduğu kimi, indi də ədəbi ictimaiyyət tərəfindən araşdırılmaqdadır.

180. AzK 1108 1246 **Qubadova, M.** Ərəblinski teatrı [Mətn] : monoqrafiya: Türkləşmək, İslamlaşmaq, Müasirləşmək! / Məsməxanım Qubadova ; elmi red. İ.Rəhimli. - Bakı : AFPoliqrAF, 2019. - 308 s.

Müəllif kitabı "Ərəblinski teatrı" adlı bu yeni elmi-monoqrafiyası 1919-cu ilin mart ayının 4-də faciəli şəkildə qətlə yetirilmiş Azərbaycan səhnəsinin ilk əfsanəvi romantik faciə aktyoru, rejisoru və teatr islahatçısı Hüseyn Ərəblinskinin ölümünün bir əsrlik anım gününə həsr edilmişdir.

181. AzK 3063 3273 6489 **Rəhimli, İ.** Abbasmirzə Şərifzadə [Mətn] / İlham Rəhimli; baş red. G.Cəfərova ; burax. məsul S. İsmayılova ; dizayn. Z.Abbasov. - Bakı : Şərq-Qərb, 2017.- 151 s.

Azərbaycan Respublikasının Xalq artisti A.Şərifzadə milli teatrımızın peşəkarlıq yönümündə formalaşmasında, romantik aktyor məktəbinin geniş vüsət almasında misilsiz xidmətlər göstərib. "Nicat", "Şəfa", "Müdiriyyət" teatr truppalarında, Akademik Milli Dram Teatrında aktyor və rejissor kimi əzmlə çalışıb. Kitabda onun səhnə sənətimizə gətirdiyi yeniliklər, yaradıcılığının əsas səciyyələri öz əksini tapıb.

182. AzK 3084 3278 **Rəhimli, İ.** Ağasadıq Gəraybəyli [Mətn] / İlham Rəhimli; burax. məsul. S. İsmayılova ; dizayn Z. Abbasov ; red. R. Həsənova ; baş

red. G. Cəfərova. - Bakı : Şərq-Qərb, 2017. - 144 s.
Kitabda aktyorun Bakı Türk İşçi Teatrındakı və Akademik Milli Dram Teatrındakı fəaliyyətinin başlıca yaradıcılıq xüsusiyyətləri, onun sənətə yanaşma prinsipləri elmi-nəzəri prizmadan təhlilə çəkilib.

**183.** **AzK 1212 1213 1214 4517 6520** **Rəhimli, İ.** Azərbaycan müəlliflərinin əsərləri akademik teatrda [Mətn] / İlham Rəhimli ; elmi red. Ə.Vəliyev ; red. A.Talıbzadə. - Bakı: Şərq-Qərb, 2017. - 144 s.
Kitabda məhz 1919-2017-ci illərdə akademik teatrda oynanılan Azərbaycan müəlliflərinin əsərlərinin tamaşa tarixləri göstərilib, yaradıcı heyət, iştirakçılar barədə məlumat verilib. Elə pyeslər var ki, əhatə olunan tarixi dövrdə bir neçə dəfə tamaşaya hazırlanıb. Hətta 1920-ci illərdə bəzi pyeslər bir neçə il dalbadal (bəzən bir ildə iki dəfə) yeni quruluşda göstərilib. Əslində bunlar cüzi dəyişiklik edilmiş təkrar tamaşalar idi, ancaq premyera kimi təqdim olunub. Buna görə də onların hamısı siyahıda qeyd edilib.

**184.** **AzK 6468 6469 6508** **Rəhimli, İ.** Azərbaycan teatr tarixi. 5 cilddə. Cild 1 [Mətn] / İlham Rəhimli ; baş red. G.Cəfərova ; bur. məsul S.İsmayılova ; dizayner E. Xocazadə - Bakı : Şərq-Qərb, 2017. - 496 s.

"Azərbaycan teatr tarixi" fundamental tədqiqat əsəri 5 cilddən ibarətdir. Kitabda Azərbaycan milli teatr tarixi min-min illər əvvəllərdən mövcud olan xalq oyun-tamaşalarından, meydan teatrından başlayaraq günümüzə qədər olan dövrü əhatə edilib. Azərbaycan teatrşünaslığında peşəkar səhnə sənətimizin bütün tarixi mərhələləri - təşəkkülü, inkişaf tarixi, əsas yaradıcılıq mərhələləri, bədii-estetik səciyyələri, poetikasının əsasları, janr üslub müxtəlifliyi ilk dəfə konseptual şəkildə, elmi-nəzəri prinsiplərlə, xronoloji ardıcıllıqla araşdırılıb. Birinci cilddə müxtəlif milli xalq oyun-tamaşalarının, meydan teatrının, şəbih teatrının, kilimarasının əsasları verilib. Bu cilddə müxtəlif məkanlarda teatr prosesinin dövlət təsisatına qədər olan dövrü tədqiq və təhlil olunub. Milli opera və operatta janrlarının yaranması və ilkin inkişaf dövrü də birinci cilddə verilib.

| | | |
|---|---|---|
| **185.** | **AzK<br>6470<br>6471<br>6509** | **Rəhimli, İ.** Azərbaycan teatr tarixi. 5 cilddə. Cild 2 [Mətn] / İlham Rəhimli ; baş red. G.Cəfərova ; red. T.Rüstəmova ; bur. məsul S.İsmayılova ; dizayner E.Xocazadə.-Bakı: Şərq-Qərb, 2017.-536 s.<br>Bu cilddə Milli Dram Teatrının (1919-1937), Opera və Balet Teatrının (1919-1937), Rus Dram Teatrının (1920-2016), Azərbaycan Dövlət Yəhudi Teatrının (1933-1939), Bakı |

Türk İşçi Teatrının (1921-1932), Gənc Tamaşaçılar Teatrının (1927-1937), Naxçıvan (1922-1937), Gəncə (1933-1937), Tiflis (1922-1937), İrəvan (1928-1937), Aşqabad (1932-1940) teatrlarının müəyyən dövlərindən bəhs olunub. Rayon teatrlarında peşəkarlığa keçidin yeni mərhələsi (1919-1937), kolxoz və sovxoz teatrları, Azərbaycan Dövlət Teatr Muzeyinin tarixi barədə tədqiqatlar verilib.

**186.** **AzK 6472 6510** **Rəhimli, İ.** Azərbaycan teatr tarixi. 5 cilddə. Cild 3 [Mətn] / İlham Rəhimli ; baş red. G.Cəfərova ; burax. məsul S.İsmayılova ; diz. E.Xocazadə. - Bakı: Şərq-Qərb, 2017. - 608 s.

Üçüncü cild "Mövzu, janr və üslub axtarışlar" bölümü ilə başlayır. Burada Milli Dram Teatrının və Opera və Balet Teatrının yaradıcılıq yollarının 1938-2016-cı illəri əhatə edilib. Hər iki sənət ocağında böyük yaradıcılıq izi olan qüdrətli sahə ustalarının yığcam portret-oçerkləri verilib. Hər iki teatrın repertuar şəcərəsinin əsas mahiyyəti xronoloji ardıcıllıqla verilib. Dünya bəstəkarlarının Azərbaycanda tamaşaya qoyulmuş opera baletlərinin siyahısına xüsusi yer ayrılıb.

**187.** **AzK 6474 6511** **Rəhimli, İ.** Azərbaycan teatr tarixi. 5 cilddə. Cild 4 [Mətn] / İlham Rəhimli ; baş red. G. Cəfərova; buraxılışa məsul S.İsmayılova; diz. E.Xocazadə.- Bakı : Şərq-Qərb, 2018. - 480 s.

Bu bölümdə Azərbaycan Dövlət Musiqili Teatrının (1938-1949 və 1956-2016), Gənc Tamaşaçılar Teatrının (1938-2016), Naxçıvan (1938-2016), Gəncə (1938-2016), Tiflis (1938-1947 və 1999-2016), İrəvan (1938-1949 və 1967-2016) teatrlarının yaradıcılıqları əhatə olunub. Haqqında bəhs olunan sənət ocaqlarında səmərəli fəaliyyət göstərmiş qüdrətli xadimlərin qısa portret-oçerkləri verilib. Kukla teatrlarına xüsusi bölüm ayrılıb. Burada Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının, Gəncə, Naxçıvan, Qax, Salyan dövlət kukla teatrlarının yaradıcılıq yolu təcəssüm tapıb.

**188.** **AzK 6476 6477 6512** **Rəhimli, İ.** Azərbaycan teatr tarixi. 5 cilddə. Cild 5 [Mətn] / İlham Rəhimli ; baş red. Ü.Məmmədova ; burax. məsul S.İsmayılova ; diz. Z.Abbasov. - Bakı : Şərq-Qərb, 2018. - 504 s.

Beşinci cild "Bərpa olunan teatrlar" bölümü ilə başlayır. Burada 1949-1950-ci illərdə bağlanmış Ağdam, Lənkəran, Şəki, Füzuli, Şuşa, Qazax dövlət teatrlarının bərpadan sonrakı yaradıcılıq yolu izlənib.

**189.** **AzK 3084 3278** **Rəhimli, İ.** Barat Şəkinskaya [Mətn] / İlham Rəhimli ; baş red. G. Cəfərova ; red. R. Həsənova ; burax. məsul S.İsmayılova ; dizayn. Z.Abbasov. - Bakı : Şərq-Qərb, 2017.- 214 s.

Milli səhnə sənətimizin füsünkar Cülyettası kimi tarixləşən Xalq artisti B.Şəkinskayanın zəngin yaradıcılığı Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrı və Akademik Milli Dram Teatrı ilə bağlıdır.

**190.** **AzK 3318 4506 4926 5933 6515 6516** **Rəhimli, İ.** Cavabsız suallar [Mətn] /İlham Rəhimli; red. Ə.Orucəli.- Bakı, 2014. - 312 s.
Professor İlham Rəhimlinin "Cavabsız suallar" kitabı orijinal formalı nəzəri-publisitik və tədqiqat xarakterli əsərdir. Azərbaycanda bu janrda ilk olan kitabda müəllif milli teatr tariximizlə, görkəmli sənətkarlarla, ictimai xadimlərlə bağlı maraqlı məqamlara toxunub.

**191.** **AzK 3065 3275 6491** **Rəhimli, İ.** Fatma Qədri [Mətn] / İlham Rəhimli ; red. T.Rüstəmova ; burax. məsul S.İsmayılova ; dizayner Z.Abbasov. - Bakı : Şərq-Qərb, 2017. - 176 s.
Kitab ölkəmizin ilk professional teatr təhsili almış Azərbaycan Respublikasının Əməkdar və Xalq artisti fəxri adlarına layiq görülmüş, yüksək aktyorluq bacarığına malik peşəkar səhnə ustası F. Qədri yaradıcılığına həsr olunub.

**192.** **AzK 6585** **Rəhimli, İ.** Gəncə teatrı [Mətn] : **1-ci bölüm:** Bakı Azad Tənqid və Təbliğ teatrı (1921-1925, Bakı Türk İşçi və Kəndli Teatrı (1925-1927), Bakı Türk İşçi Teatrı (1927-1932), **2-ci**

**bölüm:** Gəncə Dövlət Dram Teatrı (1933-2014) İ. Ə. Rəhimli ; elmi red. Ə.Vəliyev, M.Əlizadə ; red. M.Nəzirova, R. Mustafayeva.- Bakı : Elm, 2017. - 656 s.
"Gəncə teatrı" kitabı müəllifin "Azərbaycan teatrı" silsiləsindən növbəti tədqiqat əsəridir. Kitab iki bölümdən ibarətdir: "Azad Tənqid və Təbliğ teatı" (Bakı Türk İşçi Teatrı) və "Gəncə Dövlət Dram Teatrı". 1921-ci ildə Bakıda yaranan teatr 1933-cü ildə Gəncə şəhərinə köçürülüb və indiyə qədər də burada fəaliyyət göstərir. Kitabda sənət ocağının yaradıcılıq salnaməsi və sənət ocağının inkişafında xidmətləri olan səhnə xadimlərinin portret-oçerkləri verilmişdir.

**193.** **AzK 3758 3759 6517** **Rəhimli, İ.** Hökümə Qurbanova [Mətn] / İlham Rəhimli, M.Məmmədov ; burax. məsul S.İsmayılova ; red. T.Rüstəmova ; baş red. G. Cəfərova ; dizayn Z. Abbasov. - Bakı : Şərq-Qərb, 2017. - 208 s.
Kitabda romantik aktyor məktəbinin poetika göstəricilərini lirik-psixoloji aktyor məktəbinin ifadə vasitələri ilə qovuşduran, onları harmonik vəhdətdə estetik prinsiplərdə təqdim edən ilk milli aktrisamız H. Qurbanovadan söhbət açılır.

**194.** **AzK 3061** **Rəhimli, İ.** Həsən Turabov [Mətn] / İlham Rəhimli ; red. T.Rüstəmova ; buraxıl. məs.

S.İsmayılova ; dizayner Z.Abbasov. - Bakı : Şərq-Qərb, 2017. - 184 s.
Milli səhnə sənətimizdə aktyor məktəbinin yaradıcılarından və onun cəsarətlə, coşqun sənət ehtirası ilə lirik-psixoloji üslublu inkişaf etdirənlərdən biri də Azərbaycan Respublikasının Xalq artisti H. Turabov olmuşdur. Ecaskar istedad sahibi olan aktyorun Akademik Milli Dram Teatrındakı fəaliyyətinin özəl estetik səciyyələri, ifadə vasitələrinin poetik hüsnü kitabda elmi kontekstdə araşdırılmışdır.

**195.** **AzK 3069 3276 6497** **Rəhimli, İ.** İbrahim Həmzəyev [Mətn] / İlham Rəhimli ; burax. məsul. S.İsmayılova ; dizayn Z. Abbasov ; baş red. G.Cəfərova.- Bakı : Şərq-Qərb, 2017. -176 s.
Gəncədə peşəkar teatrın təşəkkülündə böyük xidmətlər göstərən Xalq artisti İbrahim Həmzəyevin (25.12.1908-4.2.1982) zəngin yaradıcılığının əsas dövrü Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqli Dram Teatrı ilə bağlıdır.

**196.** **AzK 4584** **Rəhimli, İ.** İrəvan Dövlət Azərbaycan Dram Teatrı [Mətn] : Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının yaradıcılıq yolu haqqında monoqrafiya : 1882-2006 / İlham Rəhimli ; red. H.Orucov; AR Mədəniyyət və Turizm Naz-yi. - Bakı : Elm və təhsil, 2007. - 328 s.- (Azərbaycan teatrı).

Kitabda Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının keçdiyi zəngin və əlvan yaradıcılıq yolu (1882-2006) geniş təhlil edilib. Teatr təşəkkülünə və müxtəlif inkişaf mərhələlərinə aid yeni dəyərli faktlar verilib. Ayrı-ayrı məşhur sənətkarların yaradıcılıqları məzmunlu tutumda təhlil edilib.

**197.** **AzK 3070 3280 6518** **Rəhimli, İ.** Kazım Ziya [Mətn] / İlham Rəhimli ; burax. məsul S.İsmayılova ; dizayn. Z.Abbasov ; baş red. Ü.Məmmədova. - Bakı : Şərq-Qərb, 2017. - 160 s.

Kitabda Azərbaycan Respublikasının Xalq artisti K.Ziyanın zəngin yaradıcılığından söhbət açılır. Səlis səhnə danışığı, məftunedici diksiyası, yüksək səhnə mədəniyyəti, geniş dünyagörüşü, müəllimlik məharəti ilə böyük rəğbət qazanmış K.Ziyanın yaradıcılığı dəyər və mənasına görə milli teatr sənətimizin parlaq səhifələrini təşkil edir.

**198.** **AzK 685 686 747 748 1051** **Rəhimli, İ.** Kəsişən paralellər : Zəfər Nemətov, Azər Paşa Nemət / İlham Rəhimli ; red.: K.Cəfərzadə, V.İbrahimoğlu.- Bakı: Çaşıoğlu, 2004. - 513 s.

Kitab Zəfər Nemətov və Azər Paşa Nemətin rejissorluq izləri yaradıcılıqlarının estetik mahiyyəti, sənətlərinin fərdi gözəlliklərindən bəhs edir.

**199.** **AzK 3082 6486** **Rəhimli, İ.** Mehdi Məmmədov [Mətn]/ İlham Rəhimli ; burax. məsul S.İsmayılova ; dizayn. Z.Abbasov; baş red. G.Cəfərova.- Bakı: Şərq-Qərb, 2017. - 184 s.

Professor İlham Rəhimlinin təqdim etdiyi kitabda M.Məmmədovun yaradıcılığının Gəncə Dövlət Dram Teatrı, Akademik Milli Dram Teatrı, Opera və balet Teatrı ilə bağlı dövrləri zaman ardıcıllığı ilə araşdırılıb. Kitabda Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin foto-arxivindəki şəkillərdən istifadə olunub.

**200.** **AzK 3062 6499** **Rəhimli, İ.** Məmmədrza Şeyxzamanov [Mətn] / İlham Rəhimli ; baş red. G.Cəfərova; red. Q.Nuriyev ; burax. məsul S.İsmayılova ; dizayn. Z.Abbasov. - Bakı: Şərq-Qərb, 2017. - 168 s.

Səhnədə psixoloji romantizmin və fəlsəfi realizmin bədii-estetik ifadə vasitələrinin zənginləşməsində fədakarlıqla çalışmış əzəmətli səhnə ustalarından biri də Azərbaycan Respublikasının Xalq artisti M. Şeyxzamanovdur. Aktyorun sənət prinsiplərinin əsas göstəriciləri, ifadə vasitələrinin xarakterik cəhətlərinin hansı psixoloji xüsusiyyətlərdən ibarət olduğu kitabda elmi dəqiqliklə göstərilib.

**201.** **AzK 3068** **Rəhimli, İ.** Mustafa Mərdanov [Mətn] / İlham Rəhimli ; burax. məsul S.İsmayılova ; red.

6487 T.Rüstəmova ; dizayner Z.Abbasov ; baş red. G.Cəfərova. - Bakı : Şərq-Qərb, 2017. - 176 s.
Kitabda görkəmli teatr xadimi, gözəl tərcüməçi, xeyirxah insan M. Mərdanovun C. Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin foto-arxivində saxlanılan şəkilləri və maraqlı məlumatlarla tanış olacaqsınız.

**202.** **AzK 833 6513** **Rəhimli, İ.** Mən və Özüm [Mətn] : söhbət-esse / İlham Rəhimli ; red. Ə.Orucoğlu. - Bakı : Çaşıoğlu, 2013. - 288 s.

**203.** **AzK 5438** **Rəhimli, İ.** Məram. Məbədə doğru gedən yol [Mətn] : Mir Cəlal yaradıcılığının səhnə həyatı / İlham Rəhimli; elmi red. N.Paşayeva; Regionların İnkişafı İctimai Birliyi. - Bakı : Çaşıoğlu, 2009.- 377 s.
Kitab Mir Cəlalın ayrı-ayrı teatrlarda oynanılan əsərlərinin səhnə hayatı barədə elmi-nəzəri məlumat verir, bu tamaşaların bədii-estetik məziyyətlərindən söhbət açır. Mir Cəlal və teatr estetik anlayışı haqqında söhbət gedən kitabda təhlilə çəkilən mövzu zəngin elmi faktlarla tədqiq edilib.

**204.** **AzK 3064 6493** **Rəhimli, İ.** Mərziyə Davudova [Mətn]/ İlham Rəhimli ; burax. məsul S.İsmayılova ; baş red. G.Cəfərova ; dizayn Z.Abbasov. - Bakı: Şərq-Qərb, 2017.-160s.
Kitabda Azərbaycan teatrının ilk peşəkar ak-

trisası, dram aktrisaları içərisində SSRİ Xalq artisti, faciə, qəhrəman və dramatik səpkili rolların mahir ifaçısı M.Davudovanın həyat və sənət yolundan söhbət açılır.

**205.** **AzK 3067 6495** **Rəhimli, İ.** Nəsibə Zeynalova [Mətn] / İlham Rəhimli ; burax. məsul S.İsmayılova ; red. R.Həsənova ; baş red. G.Cəfərova. -Bakı : Şərq-Qərb, 2017. - 192 s.

Azərbaycan Dövlət Musiqili Teatrı yarandığı gündən onun truppasına daxil olan səhnə ustalarından biri də qüdrətli aktrisa, Azərbaycan Respublikasının Xalq artist N.Zeynalova olub. Ecazkar yaradıcılıq palitrasına yiyələnmiş Nəsibə xanım milli operetta aktyorluğunun inkişafında misilsiz xidmətlər göstərib və ölməz sənət şəcərəsi yaradılıb.

**206.** **AzK 3756 3757 6519** **Rəhimli, İ.** Rza Təhmasib [Mətn]/ İlham Rəhimli, Cəlal Məmmədov; baş red. G.Cəfərova; burax. məsul S.İsmayılova.- Bakı: Şərq-Qərb, 2017. - 152 s.

Kitabda Azərbaycan teatr və kino sənəti tarixində rolunu, xidmətlərini müəyyənləşdirməyə çalışır, həyat və yaradıcılığının çoxlarına məlum olmayan dramatik çağlarını açıb göstərir.

**207.** **AzK 687** **Rəhimli, İ.** Seçilmiş məqalələr [Mətn] / İlham Rəhimli. - Bakı : Çaşıoğlu, 2008. - 552 s.

722 6460 Kitabda İlham Rəhimlinin kino, teatr haqqında seçilmiş məqalələri, resenziyaları toplanmışdır.

208. AzK 6478 6479 **Rəhimli, İ.** Səhnə fədailəri. 3 cilddə. Cild 1 [Mətn] / İlham Rəhimli ; burax. məs. S.İsmayılova ; dizayner E.Xocazadə ; red. Q.Təbiətoğlu ; baş red. Ü. Məmmədova. - Bakı : Şərq-Qərb, 2018. - 616 s.

Kitabda görkəmli, məşhur, unudulmaz, sıravi fədakar teatr xadimləri haqqında portret-oçerklər toplanıb. Uzun illərin yaradıcılıq axtarışları, geniş tədqiqatlar, ciddi araşdırmalar nəticəsində hasilə gələn və zəngin faktlar toplusundan ibarət olan kitablar 3 cilddən ibarətdir. Birinci cilddə 1873-1919-cu illərdə Bakıda fəaliyyət göstərmiş maarifçi dəstələrdə, "Müsəlman dram artistləri cəmiyyəti"ndə, "Nicat, "Səfa", "Müdiriyyət", "Azərbaycan artistləri ittifaqı" və digər truppalarda, eləcə də 1919-cu ildə dövlət təsisatına keçən Akademik Milli Dram Teatrında fəaliyyət göstərmiş və hazırda bu sənət ocağında çalışan aktyorlara aid portret-oçerklər toplanıb.

209. AzK 6480 6481 **Rəhimli, İ.** Səhnə fədailəri. 3 cilddə. Cild 2 [Mətn] / İlham Rəhimli ; burax. məs. S.İsmayılova ; baş red. Ü.Məmmədova ; red. Q.Təbiətoğlu ; dizayner E. Xocazadə. - Bakı : Şərq-Qərb, 2018. - 616 s.

İkinci cild 7 bölmədən ibarətdir. Bölmələrdə ardıcıllıqla musiqili teatrımızın yaradıcıları, müxtəlif illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrında, Azərbaycan Dövlət Musiqili Teatrında yaradıcılıq yolu keçmiş sənətkarlar, səhnə ilə bağlı dirijorlar, bəstəkarlar, Gəncə Tamaşaçılar, Dövlət Kukla, "Yuğ" Dövlət, Sumqayıt Dövlət, Bakı Bələdiyyə, Dövlət Gənclər, Naxçıvan teatrında fəaliyyət göstərmiş səhnə fədailəri barədə portret-oçerklər toplanıb.

**210.** **AzK 6482 6483** **Rəhimli, İ.** Səhnə fədailəri. 3 cilddə. Cild 3 [Mətn] / İlham Rəhimli ; burax. məs. S.İsmayılova ; baş red. Ü.Məmmədova ; red. Q.Təbiətoğlu; dizayner E. Xocazadə. - Bakı : Şərq-Qərb, 2017. - 616 s.

Üçüncü cild dörd bölmədən ibarətdir. Bölmələrdə ardıcıllıqla Gəncə, Şəki, Ağdam, Lənkəran, Mingəçevir, Tiflis və İrəvan teatrlarında çalışmış aktyorlar, ölkəmizin müxtəlif sənət ocaqlarında fəaliyyət göstərmiş rejissorlar, rəssamlar barədə portret-oçerklər verilib.

**211.** **AzK 3621 6521** **Rəhimli, İ.** Səhnənin hikməti [Mətn] / İlham Rəhimli; red. S.Hüseyn. - Bakı : Apostrof-A, 2014. - 192 s.

Kitabda müəllifin illər boyu teatr və tamaşaçı, teatr və aktyor, teatr və rejisor haqqında topladığı fikirlər verilmişdir.

212. AzK 698 5006 6458 **Rəhimli, İ.** Təbriz Azərbaycan teatrı/ İlham Rəhimli.- Bakı : Çaşıoğlu, 2005. - 156 s.
Kitabda Təbriz teatrının təşəkkülü, inkişafı və Təbriz teatrının görkəmli sənətkarlarından bəhs edilir.

213. AzK 699 3235 4415 6459 6484 **Rəhimli, İ.** Şəki teatrı [Mətn] : monoqrafiya : Teatrın təşəkkülü və inkişaf yolu (1879-1933); M.Ə.Sabir adına Nuxa Dövlət Dram Teatrı (1933-1949) ; Dram dərnəyi və xalq teatrı (1949-1975) ; S. Rəhman adına Şəki Dövlət Dram Teatrı (1975-2015) / İlham Rəhimli; elmi red. Ə.Vəliyev ; red. F. Mustafayev.- Bakı : Qanun, 2016.- 384 s. - (Azərbaycan teatrı).
Sənət ocağının yaradıcılıq salnaməsi "Teatrın təşəkkülü və inkişaf yolu (1879-1933", "Mirzə Ələkbər Sabir adına Nuxa Dövlət Dram Teatrı (1933-1949)", "Dram dərnəyi və xalq teatrı (1949-1975)", "Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrı (1975-2015)" bölmələri üzrə işlənib. Kitabda Şəki teatrının inkişafında xidmətləri olan aktyorlar, rejissorlar, rəssamlar haqqında portret-oçerklər verilib.

214. AzK 1243 **Sona Hacıyeva yubileyi 110** [Mətn] / tərt. ed. S. Əhmədova. - Bakı, 2018. - 174 s.
Kitab Xalq artisti, teatr və kino aktrisası Sona Hacıyevanın həyatı və yaradıcılığından bəhs edir.

**215.** **AzK 4478** **Talıbzadə, A.** Mehdi müəmması və ya sənətdə konseptual hamletizm [Mətn] : monoqrafiya / Aydın Talıbzadə, Zəfər Nemətov ; elmi red. Ə.Vəliyev ; AR Mədəniyyət və Turizm Naz-yi. - Bakı : Elm və Təhsil, 2009. - 384s.

Kitaba Azərbaycanın Xalq artisti, pedaqoq, rejissor və sənətşünaslıq doktoru M. Məmmədovun həyat və yaradıcılığı haqqında məlumatlar daxil edilmişdir.

**216.** **AzK 3071 3072 3073 3074 3079 3096** **Talıbzadə, A.** Teatr tənqidi üzrə seminar [Mətn] : dərs vəsaiti / ADMİU ; tərt.-müəl.: Aydın Talıbzadə, Məryəm Əlizadə ; elmi red. İ.İsrafilov. - Bakı : ADMİU, 2018. - 368 s.

Dərs vəsaitində dramın təhlili, tamaşanın rekonstruksiyası, aktyor və rol, tamaşanın rejissurası, tamaşa təhlili, aktyor portreti, rejissor portreti, teatrşünaslığın metodologiyası, teatr tənqidi və teatrın fəlsəfi-estetik problemlərinin araşdırılması üsullarını öyrənməyə istiqamətləndirir.

**217.** **AzK 733 3108 3118 3741 3742 3743** **Talıbzadə, A.** Şərq teatrı tarixi [Mətn] : ali məktəblər üçün dərslik /Aydın Talıbzadə ; elmi red. N. Mehdi ; AR Təhsil Naz-yi, Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-ti.- Bakı : ADMİU, 2016. - 315 s.

Dərslik Şərq ölkələrinin ənənəvi teatr formaları tarixinin, poetika və estetikasının sistemli şəkildə araşdırılmış versiyasını təqdim edir.

**218.** **AzK 3350 3351 3352 3353 3354 3355** **Şükürov, A.** Səhnə danışığı fənninə dair müntəxəbat [Mətn] : dərs vəsaiti / Azad Şükürov, Kəmalə Mehdiyeva ; red. N.Şəmsizadə, rəy.: İ.Rəhimli, F.Sultanov. - ADMİU. - Bakı, 2018. - 368s.

Dərs vəsaitində yanıltmaclar, atalar sözləri, sanamalar və düzgülər, laylalar, əfsunlar, bəhri-təvil, mənsur şeirlər, kiçik həcmli şeirlər, təmsillər, kiçik hekayələr, hekayələr, şeirlər, monoloqlar, monoloqlar üzərində tədris yaradıcılıq işi və qəzəllər proqrama müvafiq olaraq sistemləşdirilmişdir.

**219.** **AzK 4994** **Vəliyev, Ə.** Əqidə, Ruh və Teatr : (XX əsrin II yarısında Azərbaycan mədəniyyətində milli teatr konsepsiyalarının sosial-fəlsəfi və siyasi-ideoloji paradiqması) / Ədalət Vəliyev ; elmi red. M. Əlizadə. - Bakı, 2009. - 238 s.

Əsasən XX əsrin II yarısında Azərbaycan mədəniyyəti hüdudlarında gerçəkləşmiş, öz mövcudluq parametrlərini qazanmış milli teatr konsepsiyasının mahiyyəti-nin açılmasına, onun ictimai-siyasi vəziyyətlə, mənəvi-əxlaqı mühitlə əlaqəsinin aşkarlanmasına həsr olunmuş, girişdən və üç fəsildən ibarət olan kitabda qarşıya qoyulan məqsədə nail olunub. Monoqrafiyanın yekun və nəticələrindən teatr tariximizin müasir mərhələsinin tədrisi, habelə teatr tənqidi üzrə seminar dərsliyi kimi istifadə edilə bilər.

**220.** **К 2520** **Исмайлова Н.** Как хорошо, что она есть [Текст]: документальная повесть / Надежда Исмайлова; дизайн и верстка С.Абдулвагидов. - Баку, 2015. - 246 с.

Книга "Как хорошо, что она есть" написана на основе бесед, которые мы ведем с Гюльджахан ханум с перерывами почти 50 лет. Она всегда волнуется, когда вспоминает о театре, жизни, друзьях. Но всегда открыта терпелива, терпима, не уходит от неудобных вопросов. Книга включает воспоминания Гюльджахан ханум о людях, с которыми столкнула ее судьба. Прекрасные портреты эпохи, по которым можно следить за судьбой отечественного искусства. Гейдар Алиев, Мехти Мамедов, Узеир Гаджибеков, Петр Юдин, Вели Ахундов, Эльмира Аббасова, Вагиф Мустафазаде, Азад Алиев, Юрий Торопов, Бахрам Багирзаде и т. д.

**221.** **К 2569** **Рагимли, И.** Ираванский государственный Азербайджанский драматический театр [Текст] : монография о творческом пути Ираванского Азербайджанского Драматического Театра имени Джафара Джаббарлы. 1882-2006 / Илгам Рагимли ; ред. И.Оруджов ; пер. Р.Ш. Мамедова. - Баку : Е.Л., 2007. - 112 с.: портр. - (Азербайджанский Театр).

В книге есть интересные и ценные факты, касающиеся различных периодов становления и развития театра. Всестороние анализируется богатый, разнообразный, творческий путь Ираванского Государственного Азербайджанского Драматического Театра имени Джафара Джаббарлы.

222. К 2633 **Театр и зрелищные** формы Востока : История исследований : сборник статей. Вып. 4 / Сост. и отв. ред. Д.А.Гусейнова и А.С.Ризаева. - М.: Российский институт театрального искусства-ГИТИС, 2019. - 230 с.

Данный сборник продолжает знакомить читателя с театром Востока. В него вошли переводы статей и глав монографий ведущих ученых Запада и Востока по древнему театральному искусству Дальнего Востока - Юго-Восточной Азии, Китая, Японии, Индии и Кореи.

## Filologiya elmləri. Bədii ədəbiyyat

223. AzK 3702 **Abdullayev, Ç.** Eramızın əzəlində sui-qəsd / Çingiz Abdullayev. - Bakı : Zərdabi LTD, 2013. - 368 s.

Oxucuların görüşünə, adətən, detektiv əsərləri ilə gələn məhşur yazıçı Ç.Abdullayev ilk iri həcmli tarixi romanında qədim dünyanın bir

çox görkəmli şəxsiyyətlərini, bir sıra hadisələri canlandırmaqla bu suala cavab tapmağa çalışmışdır.

**224.** **Azf 48** **Adilov, V.** Ərəb mənşəli şəxs adlarının orfoepik xüsusiyyətləri [Mətn] : metodik vəsait / Vasif Adilov ; elmi red. Ə. Əliyev; Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-ti. Bakı: ADMİU, 2018. - 40 s.

Vəsaitdə ərəb antroponimiyasından seçilmiş şəxs adlarının Azərbaycan antroponimiyası sistemində milliləşməsi problemləri, onların başlıca olaraq leksik-fonetik assimilyasiyası öyrənilir, müasir Azərbaycan dilində (onomastik qatda) ərəb mənşəli (köhnə) adların mövqeyi, daxili inkişaf yolu izlənilir.

**225.** **Azf 216 1218** **Adilov, V.** Orta əsrlərdə Azərbaycan linqvokulturoloji mühiti [Mətn] : dərs vəsaiti / Vasif Adilov ; elmi red. Ə. Əliyev; Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-ti. - Bakı: ADMİU, 2018. - 95 s.

Mövcud dərs vəsaiti Azərbaycan xalqının tarixi və mədəni həyatının komponentlərindən biri olan antroponimik sistemin mənbələri haqqında geniş təsəvvür yaradır. Ərəb və türk dillərin qarşılıqlı münasibətləri, onların bir-birinə təsirinə əsaslanan inkişafları təbii və obyektiv qanunauyğun hal kimi təqdim edilir.

226. AzK 6999 **Axundzadə, M. F.** Əsərləri [Mətn] : 3 clddə. C.1: komediyalar / Mirzə Fətəli Axundzadə; rəss. A.Rəsul; burax. məs. S.İsmayılova ; diz. Z.Abbasov. - Bakı: Şərq-Qərb, 2013. - 240 s.

Kitabda müəllifin komediyaları, povest və şeirləri: “Hekayəti-molla İbrahimxəlil kimyagər”, “Hekayəti-müsyö Jordan həkimi-nəbatat və Dərviş Məsləti şah cadukünі-məşhur”, “Hekayəti-xırsi-quldurbasan”,“Sərgüzəşti-vəziri-xani-Lənkəran”,“Sərgüzəşti-mərdi-xəsis (Hacı Qara)”, “Mürafiə vəkillərinin hekayəti (Şəhri-Təbrizdə)” və “Aldanmış kəvakib” əsərləri verilmişdir.

227. AzK 7000 **Axundzadə, M. F.** Əsərləri [Mətn] : 3 cilddə. C.2 / Mirzə Fətəli Axundzadə ; rəssam A. Rəsul ; burax. məs. S.İsmayılova ; diz. Z.Abbasov. - Bakı : Şərq-Qərb, 2013. - 300 s.

Əsərlərinin yenidən işlənmiş ikinci cildinə Mirzə Fətəli Axundzadənin fəlsəfi irsi daxil edilmişdir. Cilddə məşhur "Kəmalüddövlə məktubları" traktatı, "Həkimi-ingilis Yu ma cavab", "Molla Ələkbərlə mübahisə", "Con Stüart Mill azadlıq haqqında", "Kritika", "Yek kəlmə" haqqında" və s. fəlsəfi, ədəbi-tənqidi və tarixi məqalələri toplanmışdır.

228. AzK 7001 **Axundzadə, M. F.** Əsərləri [Mətn] : 3 cilddə. C.3 : məktublar / Mirzə Fətəli Axundzadə; rəssam A.Rəsul; burax. məs.S. İsmayılova;

diz. Z.Abbasov.- Bakı : Şərq-Qərb, 2013. - 272 s.

M.F.Axundzadənin əsərlərinin yenidən işlənmiş 3-cü cildinə ölməz ədibin yeni əlifba layihəsi və "Kəmalüddövlə məktubları"nın nəşri ilə əlaqədar bir sıra məktubu daxil edilmişdir. Bu cilddə habelə tanınmış fikir adamının dövlət xadimlərinə, İranın maarifçi yazıçılarına, din xadimlərinə, naşirlərə yazdığı bir sıra məktublar da toplanmışdır.

**229.** **AzK 6603** **Allan Po, E.** Seçilmiş əsərləri [Mətn] / Edqar Allan Po; tərc. ed. İ.Əlfi və b.; burax. məsul S.İsmayılova ; dizayn A.Abdulzadə. - Bakı: Şərq-Qərb, 2011. - 496 s. - (Dünya Ədəbiyyatı Klassiləri).

Kitaba müəllifin Nantuketli Artur, Qordon Pimin sərgüzəştləri, Hans Pfaalın qeyri-adi macəraları, Morq küçəsində qətl, Uzunsov qutu, Qüllədə şeytan, Aşerlər evinin çöküşü, Görüş, "Qırmızı ölüm" ün maskası, Sfinks, Diri-diri basdırılma, Arneqeym malikanəsi, Malştrem burulğanı, Dağlarda hadisə, Xanım Ligeya, Quyu və saat kəfkiri, Qeyri-adi mələk, Qara pişik, Mumiya ilə söhbət, Şüşədən tapılmış əlyazma, Təlxək qurbağa, Saqın ürək, Sükut, Kölgə, Məşhurluq, Berenisa və Amontilyado çəlləyi adlı hekayələri daxil edilmişdir.

230. AzK 1513 1514 1515 **Aytmatov, Ç.** Seçilmiş əsərləri / Çingiz Aytmatov ; tərt. ed. A. Hacıyev ; ön söz müəl. B.Vahabzadə ; red. F.Quliyev ; bədi tərt. və dizayn müəl. T.Qorçu.- Bakı : Şərq-Qərb, 2009. - 760 s. - (Müasir dünya ədəbiyyatı).

Kitabda Gün var əsrə bərabər, Əlvida, Gülsarı!, Dəniz kənarıyla qaçan Alabaş, Ağ gəmi və Cəmilə adlı əsərləri verilmişdir.

231. AzK 6194 **Azərbaycan dilçiliyi müntəxəbatı.** 3 cilddə. Cild 1: Azərbaycan dilçiliyi tarixi: Mahmud Kaşğarlıdan 1 Türkoloji Qurultaya qədər [Mətn] /AMEA Nəsimi ad. Dilçilik İn-tu ; tərt., izah və şərhlərin müəl. T.A. Quliyev ; ön söz müəl. F.Y.Veysəlli ümumi red. K.M. Abdullayev ; red. E.S.İnanc.- Bakı : Abis Alarco, 2013. - 309 s.

Birinci cild Azərbaycan dili haqqında söylənmiş fikir və mülahizələri özündə əks etdirəcəkdir. Bu cild "Azərbaycan dilçiliyi tarixi: Mahmud Kaşğarlıdan 1 Türkoloji Qurultaya qədər" adlanır. Bu cilddə M.Kaşğarlı, M.Kazım bəy, B.Çobanzadə, Ə. Cəfəroğlu kimi məşhur alimlərimizin yaradıcılığından parçalar və ya fraqmentlər verilir.

232. AzK 6195 **Azərbaycan dilçiliyi müntəxəbatı.** 3 cilddə. Cild 2: I Türkoloji Qurultaydan XX əsrin 60-cı illərinə qədər [Mətn] / AMEA Nəsimi ad. Dilçilik İn-tu ; tərt. ed.: S.H.Mehdiyeva,

S.A.Sadıqov, İ.M.Tahirov. - Bakı : Abis Alarco, 2013. - 438 s.
Müntəxəbatın 2-ci cildində N.Ağazadə, Q.Bağırov, C.Cəfərov, Ə.Dəmirçizadə, Ə.Orucov, Ə.Şükürlü və digər dilçi alimlərimizin elmi əsərləri verilmişdir.

**233.** **AzK 6196** **Azərbaycan dilçiliyi müntəxəbatı.** 3 cilddə. Cild 3: Azərbaycan dilçiliyi tarixi: XX əsrin 60-cı illərindən günümüzə qədər [Mətn] / AMEA Nəsimi ad. Dilçilik İn-tu ; tərt., izah və şərhlərin müəl. İ.B. Kazımov; ön söz müəl. F.Y.Veysəlli ümumi red. K.M.Abdullayev ; red. M.Ə.Mahmudov. - Bakı: Abis Alarco, 2013.- 521 s.
Üçüncü cild "Azərbaycan dilçiliyi tarixi: XX əsrin 60-cı illərindən günümüzə qədər" adlanır və bu cilddə müasir dilçilərimizin elmi əsərlərindən seçmələr toplanmışdır. Burada A.Axundov, H.Bayramov, T.Hacıyev, V.Məmmədəliyev, Y.Seyidov, A. Ələkbərli və hazırda dünyasını dəyişmiş Ə.Abdullayev, M.Adilov, Ə.Cavadov, və b. görkəmli dilçilərimizin əsərlərindən seçmələr verilir.

**234.** **AzK 7002** **Azərbaycanca-ingiliscə lüğət** [Mətn] : A-Z : lüğətə təxminən 55000 söz, söz birləşməsi və cümlə daxil edilmişdir / tərt. ed. O.İ.Türksevər (Musayev) və b.; red. E.İ.Hacıyev ; burax. məsul S.İsmayılova. - Bakı, 2013.- 896 s.

**235.** **AzK 7003** **Babayev, A.** Dünyanın axırı [Mətn] : roman (Şəhidlərimizə ithaf olunur) /Aqşin Babayev ; red. M. Ələkbərli.-Bakı: Elm və təhsil, 2019. - 368 s.

Roman müstəqillik dövrü ədəbiyyatımızın ilk irihəcmli əsərlərindən biridir və əsərin birinci nəşri 1992-ci ildə "Gənclik" nəşriyyatında işıq üzü görüb.

**236.** **AzK 6168** **Benvenist, E.** Ümumi dilçilik problemləri [Mətn] / Emil Benvenist ; tərc.: Q.Cəfərov, H.Rəhimov, R.Cabbarov ; red. B.B. İsmayılov; red. heyyəti: K.M.Abdullayev və b. ; ön söz F. Y. Veysəlli. - Bakı: Prestige, 2014.- 191 s.

Bu kitabda toplanmış tədqiqatlar müəllifin son bir neçə ildə nəşr etdirdiyi, daha çox xüsusi xarakter daşıyan bir çox başqa əsərlərinin içərsindən seçilmişdir.

**237.** **AzK 7009** **Bir könüldən min** könülə [Mətn] / tərc.ed. Xəlil Rza Ulutürk ; tərt. ed. F. Ulutürk ; red. Z. Şahsevənli. -Bakı : Elm və təhsil, 2019. - 488 s.

Bu kitaba xalq şairi Xəlil Rzanın müxtəlif illərdə dünya ədəbiyyatından etdiyi tərcümələrdən seçmə nümunələr daxil edilmişdir. Bu unikal poeziya toplusu Türk dünyasını, Yaxın Şərqi, Avropanı, Cənubi Amerikanı, Afrikanı və başqa fərqli coğrafiyanı əhatə edir.

**238.** **AzK 6178** **Blumfild, L.** Dil [Mətn] / Leonard Blumfild ; red. F. Y. Veysəlli ; red. şurası K.M.Abdullayev (sədr). - Bakı : Prestij, 2014.- 520 s.
Məşhur amerikan dilçisi Leonard Blumfildin "Dil" əsərində müəllifin dilə yeni baxışları əks olunub. Eyni zamanda kitabda dilin gənc qrammatiklərdən fərqli təhlil metodu və prinsipləri şərh olunur.

**239.** **AzK 6169** **Boduen de Kurtene, İ. A.** Ümumi dilçilik üzrə əsərləri [Mətn] / İvan Aleksandroviç Boduen de Kurtene ; tərc.: F.Veysəlli, C.Babayev, N.Abdullayeva; red. F.Veysəlli. - Bakı: Prestige, 2014. - 336 s.
Dilçilik elminin klassiklərindən sayılan İ.Boduen de Kurtenenin bu kitabında müəllifin dil, onun genezisi, ontologiyası haqqında fikirləri öz əksini tapıb.

**240.** **AzK 7003** **Cabbarlı, C.** Əsərləri. 5 clddə. Cild 1 / Cəfər Cabbarlı ; rəs. A.Rəsul ; burax. məs. S.İsmayılova ; dizayn. Z.Abbasov.- Bakı: Şərq-Qərb, 2013.-272 s.
Kitabda lirik şeirlər; satirik şeirlər; poema : Qız qalası; hekayələr : Aslan və Fərhad; Mənsur və Sitarə; Əhməd və Qumru; Parapetdən Şamaxı yoluna qədər ; Müfəttiş ; "Çocuq" ; Altun heykəl ; Qara qənbər ; Gülzar ; Dilarə ; Dilbər ; Papaq ; Gülər ; Firuzə ; Qeydlər və s. şərhlər verilmişdir.

**241.** **AzK 7004** **Cabbarlı, C.** Əsərləri. 5 cilddə. Cild 2 / C. Cabbarlı; rəs. A.Rəsul ; burax. məs. S.İsmayılova ; dizayn Z.Abbasov. - Bakı : Şərq-Qərb, 2013. - 308 s.
Kitabda C.Cabbarlının pyesləri : "Vəfalı Səriyyə", "Solğun çiçəklər", "Nəsrəddin şah", "Ulduz", "Ədirnə fəthi", "Aydın", "Oqtay Eloğlu" və "Od gəlini" əks olunmuşdur.

**242.** **AzK 7005** **Cabbarlı, C.** Əsərləri. 5 cilddə. Cild 3 : pyeslər/ Cəfər Cabbarlı ; rəs. A. Rəsul ; burax. məsul S. İsmayılova ; dizayn Z. Abbasov. - Bakı : Şərq-Qərb, 2013. - 308 s.
Kitabda görkəmli dramaturqun pyesləri: Sevil, Almaz, 1905-ci ildə, Yaşar və Dönüş nəşr olunmuşdur.

**243.** **AzK 2148** **Cabbarlı, C.** Mən bir susmaz duyğuyam ki… [Mətn] / Cəfər Cabbarlı ; tərt. A. Rüstəmli.- Bakı : Kitab klubu, 2017.- 471 s.
Kitabda ölməz dramaturqun dram əsərləri və hekayələri, teatr və ədəbi tənqid məqalələri və şeirləri nəşr olunmuşdur.

**244.** **AzK 6607 6608** **Dünya dramaturgiyası antologiyası**. 2 cilddə. Cild 2 [Mətn] / tərc. ed. D. Mustafayev ; red. N. Cabbarlı ; bur. məsul S.İsmayılova ; dizayner A. Abdulzadə. - Bakı : Şərq-Qərb, 2013. - 600 s.

245. **AzK 6606** **Dürrenmatt, F.** Seçilmiş əsərləri / F.Dürrenmatt; tərc.ed. D.Mustafayev; burax. məsul S.İsmayılova ; dizayn A.Abdulzadə.- Bakı : Şərq-Qərb, 2013.- 288 s.- (Müasir dünya ədəbiyyatı).

F.Dürrenmatt ədəbiyyat tarixində özünün dəstxəti ilə seçilən, səhnədə real həyat motivlərini əks etdirən, üslub və janr cəhətdən realizmlə abstarkt təfəkkürün sintezini yaradan bir dramturq kimi yadda qalmışdır. Onun qələmə aldığı "Böyük Romil", "Yaşlı xanımın təşrifi", "Fiziklər" kimi pyesləri dünyanın seçilən teatrlarının səhnələrini fəth etmişdir.

246. **AzK 6599** **Eko, U.** Qızılgülün adı [Mətn] : roman / Umberto Eko; tərc. ed. S.Bulut. - Bakı : Şərq-Qərb, 2013. - 680 s. - (Müasir dünya ədəbiyyatı).

Ekonun "Qızılgülün adı" - postmodernist romandır. Əsər orta əsrlər və xristianlıq dünyasından bəhs edir. Bu o romanlardandır ki, ədəbiyyatı sevməyənlər belə, ümumi dünyagörüşün inkişafı naminə onu oxumalıdırlar. Çağdaşımız olan böyük Qərb mütəfəkkirinin qələmindən çıxmış böyük Qərb mədəniyyətinin bəhrəsi olan bu roman ünlü nəzəriyyəçilərin və dünya oxucularının alqışını qazanıb, yazılmasından 30 ildən artıq vaxt keçir, hələ də fəlsəfi ədəbiyyatı sevənlərin diqqət mərkəzindədir.

247. **Əliyeva-Kəngərli, G.** “Hüsnü-cəmal, əqli kamal” [Mətn] : Nəsimi poetikasından incilər / Gülşən Əliyeva-Kəngərli; elmi red. T.Kərimli. - Bakı : Qanun, 2019. - 96 s.

Akademik Teymur Kərimlinin elmi redaktorluğu ilə 2019-cu ildə işıq üzü görən kitaba tanınmış füzulişünas-alim Gülşən Əliyeva-Kəngərlinin dahi Azərbaycan şairi İmadəddin Nəsimi haqqında mülahizələri daxil edilib. Kitabda Nəsiminin şəxsiyyətinə və yaradıcılığına həsr olunmuş "Türk ruhunun poetik vüsəti", "Şeirimizin "quş dili", yaxud Nəsimi poeziyasında rəmz", "Nəsimi poeziyasında "hüsnü-cəmal", "Nəsimi poeziyasında Can, Cahan, Canan (kosmik aləmin dərki)", "Nəsimi şeirində vəhdət: mürşid və mürid", "İki dahi: Nəsimi və Füzuli şeirində ədəbi paralelizm" və "Bütün zamanların dahisi (nəticə əvəzinə)" sərlövhəli məqalələr toplanıb.

248. **AzK 6602** **Faulz, C.** Seçilmiş əsərləri / Con Faulz ; tərc. ed. İ. Əlfi; baş red. S. Bektaşi ; burax. məsul S. İsmayılova ; dizayner A. Abdulzadə. - Bakı: Şərq-Qərb, 2013. - 520 s. - (Müasir dünya ədəbiyyatı).

Con Faulz ədəbiyyatda postmodernizm cərəyanının görkəmli nümayəndələrindən biri hesab olunur. Kitabda onun “Mantissa”, “Ebonit qüllə”, “Eniqma”, “Elidyuk” və “Aristos” adlı esseləri verilmişdir.

**249.** **AzK 6604** **Flober, Q.** Madam Bovari [Mətn] : roman / Qustav Flober; tərc. ed. İ.Əlfioğlu ; baş red. S.Bektaşi ; burax. məs. S.İsmayılova; dizayner A.Abdulzadə.- Bakı: Şərq-Qərb, 2013.- 390s. - (Dünya ədəbiyyatı klassikləri).

"Madam Bovari" əsəri, fransız yazıçı Qustav Floberin (Gustave Flaubert) şah əsərlərindən biridir. Əsər romantik, xəyalpərəst, məntiqdən çox hissləri ilə hərəkət edən bir qadının həyat hekayəsini özündə əks etdirir. Psixoloji dərinlik, təsvir və realist yanaşmaları və süjet xətti ilə əsər diqqətləri öz üzərinə çəkir.

**250.** **AzK 3515** **Füyuzat (1906-1907)** / Transliterasiya edəni, çapa hazır. və ön sözün müəl.: O. Bayramlı; red.: B.Nəbiyev, T.Kərimli; AMEA Nizami ad. Ədəbiyyat İns-tu. - Bakı : Çaşıoğlu, 2007.- 672 s.

Ə.Hüseynzadənin baş mühərrirliyi və H.Z.Tağıyevin maddi vəsaiti ilə 1906-1907-ci illərdə nəşr olunan "Füyuzat" məcmuəsinin 32 sayı bu kitabda toplanmış, çağdaş latın qrafikasında, yenidən nəşr olunmuşdur. Bu məcmuə, XX əsrin əvvəllərində Azəri və türk xalqlarının siyasi və ədəbi fikrinin ən möhtəşəm abidəsidir.

**251.** **AzK 7010** **Füzuli, M.** Seçilmiş əsərləri. 3 cilddə. Cild 1/ Məhəmməd Füzuli.- Bakı : Şərq-Qərb, 2013.- 712 s.

Azərbaycan-türk şeirinin tacidarı Məhəmməd Füzuli Şərq xalqlarının ədəbiyyatına qüvvətli təsir göstərən dahi bir sənətkardır. Xaqani, Nizami, Nəsimi, Yunus Əmrə, Nəvai kimi ölməz şairlər sırasında əzəmətlə dayanan Füzulinin ədəbiyyatımızda yeri ucalardan ucadır. Yaxın və Orta Şərq ölkələrinin heç birində ondan sonra onun səviyyəsində şair yetişməmişdir. Eşq beşiyində paklıqla tərbiyələnən, sözün fəlsəfi mənasında məhəbbət və dinin, dünya miqyasında bənzərsiz bir eşq təliminin banisi-filosofu və şairi olan Füzuli bütün dövrlərin ən böyük "aşiq"idir.

**252.** **AzK 7011** **Füzuli, M.** Seçilmiş əsərləri. 3 cilddə. Cild 2 / Məhəmməd Füzuli. - Bakı : Şərq-Qərb, 2013.- 808 s.

Azərbaycan şeirinin ölməz nümunələrini yaradaraq türk dilinin nəyə qadir olduğunu göstərən, beləcə tarix içində mənəvi mənliyimizə - dilimizin, mənəviyyatımızın əbədi canlı heykəlinə çevrilən Füzuli eyni zamanda, ərəb və fars dillərinə biganə qalmamış, bu dillərdə də ərəb, fars şairlərinin yaratdığı nümunələr səviyyəsində dayanan müxtəlif janrlı əsərlər yaratmışdır.

**253.** **AzK 7012** **Füzuli, M.** Seçilmiş əsərləri. 3 cilddə. Cild 3 / Məhəmməd Füzuli. - Bakı : Şərq-Qərb, 2013.- 492 s.

“Seçilmiş əsərləri”nin yenidən işlənmiş bu cildi dahi şairin ərəb və fars dillərində yazdığı nəsr əsərləri ilə bərabər, farsca “Yeddi cam” poemasının tərcüməsini, farsca qəzəl və qəsidələrinin sətri tərcümələrini, “Rindü Zahid”, “Səhhət və Mərəz”, “Mətlə ül-etiqad”, “Hədiqətüs-süəda” əsərini, eləcə də Füzuli adına yazılmış şeirləri əhatə edir.

**254.** **AzK 579** **Gəncəvi, N.** Əsərləri [Mətn]. 2 cilddə. Cild 1/ Nizami Gənvəvi; H.Əliyev Fondu, Gəncə şəh. İcra Hakimiyyəti, AR Mədəniyyət və Turizm Naz-yi.- Bakı: Şərq-Qərb, 2013.- 780 s.- (Nizami Gəncəvinin 870 illik yubileyi münasibəti ilə Gəncə Şəhər İcra Hakimiyyətinin tövsiyəsi ilə çap olunmuşdur).

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin təqdim olunan 2 cildliyinə 5 poemadan “Xəmsə”si və lirik şeirləri daxil edilmişdir 1-ci cild “Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Leyli və Məcnun” poemalarından və şairin lirik şeirlərindən bəhs edir.

**255.** **AzK 580** **Gəncəvi, N.** Əsərləri [Mətn]. 2 cilddə. Cild 2/ Nizami Gəncəvi ; H.Əliyev Fondu, Gəncə şəh. İcra Hakimiyyəti, AR Mədəniyyət və Turizm Naz-yi - Bakı : Şərq-Qərb, 2013. - 764 s.
2-ci cild “Yeddi gözəl” və “İskəndərnamə” poemalarından ibarətdir.

256. **AzK 7013** **Heyət, C.** Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda. 5 clddə. Cild 1: məqalələr toplusu / Cavad Heyət ; red. Şəlalə Ana ; farsca mətn. tərc. ed. Ş. Abdullayeva ; transliterasiya edən A.Acalova. C. Heyət.- Bakı : Elm və təhsil, 2011.- 701 s.

C.Heyət Azərbaycan və Türkiyə ədəbiyyatının görkəmli nümayəndələrindən bir çoxu haqqında məqalələr yazarkən onların hər birinin həyat yolunu, yaradıcılığını, şəxsiyyətin xarakterini, əsərlərinin ideya-nəzəri görüşlərini, fərqli, səciyyəvi xüsusiyyətlərini yetərincə dolğun şəkildə təqdim edib.

257. **AzK 7014** **Hidayət.** Burdan min atlı keçdi / Hidayət, red. S. Nəzərli. - Bakı: "Apostrof" MMC, 2016. - 744 s.

Əsərdə tarixən əzəli türk torpaqları olmuş Qərbi Azərbaycanda azərbaycanlı türklərin yaşadığı ictimai-siyasi şərait, ədəbi-mədəni mühit, C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının sənət yolu, görkəmli azərbaycanlı ictimai və dövlət xadimlərinin fəaliyyəti, bütövlükdə soydaşlarımızın on illər boyu məkrli erməni siyasətinə qarşı apardıqları mərd və mətin mübarizə qələmə alınmışdır.

258. **AzK 6180** **Humboldt Fon V.** Dillərin milli xarakteri haqqında [Mətn]; Yazının tarixi / V. Fon

Humboldt, H. Haar-man ; tərc. ed.: İ. Q. Kərimov, F. Y. Veysəlli, red. şurası K. M. Abdullayev və b.-Bakı: Prestij, 2014.-138s.
Kitabda dünya dilçilik elminin yaradıcılarından biri olan V. fon Humboldtun dilçilik görüşləri haqqında F. Y. Veysəllinin məqaləsi, sonra isə V.fon Humboldtun "Dillərin milli xarakteri" haqqında əsəri çap olunur.

**259.** **AzK 7015** **Hümmətova, X.** Klassik Azərbaycan şeirində təsəvvüf (XII-XVI əsrlər) / Xuraman Hümmətova.- Bakı, 2018.
Müəllifin qənaətinə görə, təsəvvüf və irfan özünün təkamül və yüksəliş tarixində bu nəzəriyyə ilə zirvəyə və kamala çatır, bütöv yetkin və sistemli təlim halına gəlir.

**260.** **AzK 6616 6617 6618** **Hüseynoğlu, G.** Mücrü [Mətn] / Gülhüseyn Hüseynoğlu. - Bakı : CBS-PP, 2019. - 296 s.
Kitaba müəllifin hekayələri: Ana, Ağ kələyağı, İtmiş keçi; Mənsur şeirləri: Gül, oçerk və povestləri: Yaşıl təpə döşündə daxil edilmişdir.

**261.** **Azf 958** **Hüseynzadə, T.** Miskin Abdal-Qeyb Ərəni, təsəvvüf Piri [Mətn] : elmi-tədqiqat əsəri / Tofiq Hüseynzadə.- Bakı, 2018.- 360 s.
Kitabda tarixi şəxsiyyət, 1430-1535-ci illərdə yaşamış Miskin Abdalın nəslinin davamçısı, tədqiqatçı-folklorşünas Tofiq Hüseynzadənin

yüksək ilahi-ruhani təsəvvüf məqam və dərəcələrini simvolizə edən "Miskin" və "Abdal" anlayışlarının ədəbiyyatımızda ilk dəfə əsaslandırılmış elmi izahı verilmişdir.

